

# GÜNDOĞAR

11 may 2017-ci il №11-12-13-14 (6637) İCTİMAİ-SİYASİ QƏZET Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi


## Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü tamam oldu

# XALQIMIZIN MİLLİ İFTİXARI

Tarixdə şəxsiyyətin rolu danılmazdır. Əslində tarixi yaradanlar da şəxsiyyətlərdir. Hər xalqın, hər millətin, hər ölkənin tarixində rol oynamış şəxsiyyətlər — sərkərdələr, xaqanlar, krallar, bir sözlə, rəhbərlik səriştəsinə malik insanlar olmuşdur.

Azərbaycan tarixində də nüfuzlu, görkəmli şəxsiyyətlər az olmamışdır. Onların adları tariximizə qızıl hərflərlə yazılmış, nəsillərə nümunə kimi həmişə hörmətlə anılmışdır. Amma onlardan biri xüsusilə fərqlənir. Xalq ona ulu öndər, ümummilli lider kimi əbədiyaşar adlar vermişdir. Lakin bu dahi insanın bir böyük və danılmaz adı da var: XİLASKAR.

Rus imperiyası SSRİ adı ilə yenidən dirçələrkən Azərbaycan da onun tərkibində ittifaqın üzvlərindən biri kimi qaldı, "on beş qardaş respulika"dan biri oldu. Elə ilk gündən "böyük qardaş, kiçik qardaş" məsələsi ortaya çıxdı. Bu proses ötən əsrin altmışıncı illərinin sonuna kimi davam etdi. O zaman ölkəmizdə güclü ruslaşdırma siyasəti aparılır, məmurlar və onların felinə düşənlər uşaqlarını rus məktəblərində oxutdurur, ailələrində övlad anası ilə rus dilində danışırdı. Azərbaycan isə geridə qalmış ucqar bir aqrar əyalətini xatırladırdı. Məhz belə bir zamanda ölkədə rəhbərlik dəyişdi, Mərkəzi Komitənin baş kürsüsündən mərd, mətin, çəsarətli bir səs eşidildi. Bu səs öz millətinə təmiz, büllur Azərbaycan dilində müraciət etdi. Köhnə stereotiplər kökündən sarsıldı, ürəklərdəki, beyinlərdəki ətalət buzu əridi. Bu səsin sahibi xalqın yeni rəhbəri, qüdrətli oğlu Heydər Əlirza oğlu Əliyev idi. Bu səsdən "böyük qardaş" özü də heyrətə düşdü, bütün nəzərlər Bakıya dikildi. Azərbaycana olan ögey münasibətə son qoyuldu.

Ölkədə kənd təsərrüfatı, ağır və yüngül sənaye sürətlə inkişaf etdi. Məhz Heydər Əliyevin müstəqil siyasəti nəticəsində Azərbaycan böyük Nəsiminin 600 illik yubileyi ilə bütün dünyaya səs saldı. Təhsil, səhiyyə, mədəniyyət və incəsənət sahələrində böyük islahatlar getdi, misilsiz zirvələr fəth olundu. Naxçıvanski adına ilk hərbi məktəbimizin yaradılması ilə isə böyük uzaqgörənliklə bu günkü Milli Ordumuzun əsası qoyuldu. Kəndlər, qəsəbələr, şəhərlər abadlaşdı, ölkəmiz özü boyda tikinti meydanına çevrildi. Həmin dövr Azərbaycanın böyük sıçrayış və inkişaf dövrü idi! Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 14 il ərzində Azərbay-



can inanılmaz zirvələrə yüksəldi. Digər "kiçik qardaş" respublikalardan fərqli olaraq Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dili elan olundu. Bütün bunları mərkəz görür və izləyirdi. Ona görə də onu daha yüksək vəzifəyə — SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə apardılar. Əslində onu çox məkrli şəkildə ölkədən, xalqdan ayırdılar, bir növ təcrid etdilər.

Amma bu böyük insan bütün imkanları daxilində heç vaxt öz xalqından qayğısını və diqqətini əsirgəmədi, öz ləyaqətini hər şeydən uca tutdu. Heydər Əliyev Kremldəki haqsızlıqlara etiraz edərək istefaya gedəndə bütün SSRİ-də olan antiazərbaycançı qüvvələr, o cümlədən erməni millətçiləri fəallaşmağa başladılar. Halbuki o, hakimiyyətdə olarkən bir erməni belə səsini çıxarıb Qarabağa iddia etməyə cəsarət etməmişdi.

İllər keçdi, "sarsılmaz" ittifaq sarsıldı, SSRİ sürətlə parçalandı, dağıldı. Bu tarixi fürsətdən Azərbaycana da pay düşdü, müstəqillik əldə etdik. Heydər Əliyev doğulduğu şəhərə — Naxçıvana gəldi. Azərbaycan Ali Sovetinə deputat seçildi, Naxçıvan Ali Məclisinin sədri oldu. Bakıda, Ali Sovetin tribunasından yerli rəhbərliyə öz tövsiyələrini verdi. Lakin respublikanın o zamankı rəhbərləri dəhşətli bir səhvə yol verdilər, ona qulaq asmadılar və bununla özlərinin sonuna hökm verdilər, ölkədən qaçdılar. Yeni hakimiyyətə gələn AXC də həmin dəhşətli səhvi təkrarladı, Heydər Əliyev kimi dahi siyasətçini dərk edə bilmədi. Nəticədə nəinki Qarabağı, hələ üstəlik öz hakimiyyətini də itirdi. Ölkənin nəzarətdən çıxdığını, respublikanın dağıldığını görüb Naxçıvana elçini elçi dalınca göndərdilər, Heydər Əliyevin əlinə-ayağına düşdülər. Ölüm qorxusu güclü olur, ölkədə artıq başlamaqda olan vətəndaş müharibəsi AXC-Müsavat cütlüyünü dəhşətə gətirdi. Bütün bunları diqqətlə izləyən, sonunu görməyən xalq böyük təkidlə Heydər Əliyevi Bakıya dəvət etdi. Heydər Əliyevin gəlişi ilə xalqın bütün sönmüş ümidləri yenidən çanlandı. Xalq öz xilaskar oğlunu bağrına basdı, onu yenidən hakimiyyətə gətirdi.

Bu günkü sabitlik, əmin-amanlıq, inkişaf, dinc quruculuq işləri, ötən ilin aprel döyüşlərindəki qələbə məhz bu böyük xilaskarın ünvanına yazılmalıdır. Biz Heydər Əliyevə bir də ona görə borcluyuq ki, özündən sonra Azərbaycanı layiqli bir insana — möhtərəm İlham Əliyevə tapşırmışdır. Hər birimiz inanırıq ki, ulu öndərin müdrik siyasətini uğurla davam etdirən dövlətimizin başçısı Azərbaycanın bütün problemlərini həll edəcək, bir-birindən parlaq qələbələrə imza atmaqla xalqımızın xoşbəxt gələcəyini təmin edəcəkdir.

# ANIM GÜNÜNÜN BÖYÜK SEVİNCİ

Özündən çox mənsub olduğu xalqını, Vətənini düşünənləri, onların varlığı, xoşbəxtliyi üçün həyatlarını verənləri, lazım gələrsə ölməyə belə hazır olanları ən böyük insanlar, şəxsiyyətlər kimi dəyərləndirən ulu öndər Azərbaycan vətəndaşını, Azərbaycan gəncliyini də belə görmək istəyirdi. Ona görə ki, Heydər Əliyev özü də doğma Vətənini, xalqını ürəkdən sevirdi, bu yolda canından keçməyə də hazır idi. Hər bir addımı ilə bütün cəmiyyətə nümunə göstərirdi. Bu nümunə əsl vətəndaşın, həqiqi azərbaycanlının, böyük insanın ən mükəmməl cizgilərini əks etdirirdi özündə.

Ulu öndər Heydər Əliyev ötər əsrin 70-ci illərinə kimi sovet imperiyasının amansız repressiyaları nəticəsində mənəvi cəhətdən sındırılan və bir müstəmləkə xalqı kimi qəbul edilən azərbaycanlıların milli qürur hissini özlərinə qaytardı. Bunun əsas səbəbi yalnız həmin illərdə qazanılan böyük iqtisadi uğurlarla, təhsildə, mədəniyyətdə və ictimai həyatımızın digər sahələrində baş verən genişmiqyaslı dəyişikliklərlə bağlı deyildi. Heydər Əliyevin hər bir



addımı Azərbaycançılıq ideyasının gerçəkləşdirilməsi kimi unikal bir prosesin yeni mərhələsinin əsasını qoyurdu.

Aradan bir neçə il keçəndən sonra müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə də ulu öndər Heydər Əliyev nə qədər böyük bir siyasi xadim olduğunu bir daha nümayiş etdirdi. Bu dahi insan Azərbaycanda davamlı ictimai-siyasi faktora əsaslanan müstəqil



dövlətçiliyin möhkəm təməlini yaratdı. Ölkəmizin cəmi bir neçə il ərzində qazandığı parlaq nailiyyətlər dünyanın bir çox məşhur siyasətçiləri tərəfindən qibtə ilə qarşılandı. Şübhəsiz ki, bu münasibət xalqımızda qürur hissi doğurmaya bilməzdi. Biz ulu öndərin hər bir xarici səfərində, respublikamıza gələn müxtəlif ölkələrin təmsilçilərilə görüşlərində ona nə qədər böyük hörmət və ehtiramın ifadə olunduğunun şahidinə çevrilirdik və bundan qürur duymamaq mümkün deyildi.

Bu gün ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının milli ləyaqət simvolu kimi qoyub getdiyi siyasi irsinin qorunması elə milli ləyaqətimizin qorunması deməkdir. Bu dahi insanın anadan olmasının ildönümlərinin, yubileylərinin adına layiq böyük qoşqu ilə, əsl el məhəbbətilə qeyd olunması da bununla bağlıdır.




Mayın 10-da — ulu öndər Heydər Əliyevin anım günündə bu böyük el məhəbbətinin bir daha canlı şahidi olduq. Həmin gün paytaxtın küçələri, prospektləri yenə insan selinə bürünmüşdü. Yüz minlərlə, milyonlarla cavan, qoca, qadın, uşaq xalqı fəlakətdən xilas edərək ağ günə çıxaran ümummilli lideri yad etmək üçün Fəxri Xiyabana tələsirdi. Onlar ulu öndərin abidəsi önünə tər çiçəklər düzür, bu




dahi insana özlərinin dərin hörmət və ehtiramlarını bildirirdilər.

Ötən əsrin 70-ci illərində Neftçalanın müstəqil rayon kimi yenidən təşkil olunaraq fəaliyyətə başlamasında xüsusi rolu və xidmətləri olmuş möhtərəm Heydər Əliyevin işıqlı xatirəsi rayon sakinləri üçün xüsusilə əzizdir. Mayın 10-da Neftçalada da ulu öndər böyük el sevgisi ilə anıldı. Rəhbərin adını daşıyan meydana çoxlu sayda insan toplaşmışdı. Hamının çöhrəsində sonsuz sevinc hissi vardı. Ümummilli lideri tərənnüm edən əzəmətli musiqi sədaları pərdə-pərdə ətrafa yayıldıqca ürəklərdəki qürur hissi daha da artırdı. Rayon sakinləri sözün əsl mənasında onlara doğma olan bu dahi insanla fəxr edirdilər, onun ruhu qarşısında baş əyirdilər.

Saat 10-da rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, rayonun rəhbər işçiləri, başçı yanında fəaliyyət göstərən şuranın üzvləri, ictimaiyyətin nümayəndələri də ulu öndərin abidəsi önünə gəldilər. Abidə önünə gül dəstələri düzüldü. Rayonun idarə və müəssisələrinin kollektivləri, ayrı-ayrı insanlar ulu öndərə olan ehtiramlarını buraya düzdükləri ətirli çiçəklərlə bildirdilər.

Gülqoyma mərasimi başa çatdıqdan sonra tədbir Heydər Əliyev Mərkəzində davam etdirildi. Buraya gələnlər mərkəzin foyesindəki kitab sərgilərinə, məktəblilərin rəsm işlərinə maraqla tamaşa etdilər. Böyük salon adamla dolu idi. Çoxlu sayda insanı buraya gətirən ulu öndərə olan tükənməz sevgi idi. Mərkəzdə təşkil olunan tədbir hamının ürəyindən oldu. Salona toplaşanlar böyük maraqla ümummilli lider Heydər Əliyevin zəngin ömür yolunu, genişmiqyaslı ictimai-siyasi fəaliyyətini əks etdirən filmə tamaşa etdilər. Müğənnilərin ana Vətəni, doğma torpağı, ulu öndəri tərənnüm edən mahnıları ürəklərdə sonsuz qürur hissi doğurdu. Kiçik yaşlı məktəblilərin sevgi dolu şeirləri, nəğmələri, nümayiş etdirdikləri rəqslər dəfələrlə alqışlandı.



İllər, qərinələr ötəcək, zaman dəyişəcək, amma dəyişməyən, həmişə canlı qalan Heydər Əliyevə bitib-tükənməyən ümumxalq məhəbbəti, böyük el sevgisi olacaq. Bu dahi insanın əbədiyaşar ideyaları durduqca nəsillər bundan daim faydalanacaqlar, gələcək yollarını, fəaliyyətlərini düzgün müəyyənləşdirəcəklər.



* * *

**Umummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə əlaqədar mayın əvvəlindən başlayaraq rayonumuzun hər yerində — idarə və müəssisələrdə, məktəblərdə, mədəniyyət obyektlərində, uşaq bağçalarında və digər yerlərdə bir-birindən maraqlı, rəngarəng tədbirlər təşkil olunmuşdur. Yeni Azərbaycan Partiyasının rayon təşkilatında, Heydər Əliyev Mərkəzində, rayon mərkəzləşdirilmiş kitabxana sistemində keçirilən tədbirlər xüsusilə yaddaqalan olmuşdur. Həmin tədbirlərdə ulu öndərin mübarizələrlə dolu ictimai-siyasi fəaliyyətinə bir daha dərindən nəzər salınmış, mənalı ömür yolu yenidən vərəqlənmiş, isti xatirələr dinlənilmişdir.**

# Alman faşizmi üzərində Qələbənin 72-ci ildönümü münasibətilə rayon veteranlarına TƏBRİK

**Əziz veteranlar!**

Sizi 9 may — alman faşizmi üzərində Qələbənin 72-ci ildönümü münasibətilə rayon ictimaiyyəti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Keçən əsrin ortalarında baş vermiş İkinci Dünya müharibəsi cahan tarixində ən irimiqyaslı, ən dəhşətli savaşlardandır. Dünyanın əksər iri dövlətlərinin cəlb olunduğu bu qanlı müharibə bəşəriyyətə çox ciddi zərbələr vurmuş, 50 milyondan artıq insanın həyatına son qoymuşdur. Müharibənin əsas ağırlığı sovetlər birliyinə daxil olan xalqların, millətlərin üzərinə düşsə də, bundan Avropa ölkələri, bütövlükdə dünya ölkələri də az ziyan görmədilər. Milyonlarla insanlar müharibənin törətdiyi fəlakətləri, məhrumiyyətləri yaşamağa məcbur oldular. Elə buna görə 1945-ci il mayın 9-da bütün dünyanı təlatümə gətirən, lərzəyə salan faşizmə qarşı mübarizədə tarixi qələbəyə nail olanda bundan təkcə qaliblər deyil, bütün bəşəriyyət sevindi.

Dünyanın faşizm taunundan xilas olunmasında Azərbaycan xalqı da özünün misilsiz töhfələrini vermişdir. Həmin illərdə 700 mindən çox həmyerlimiz silaha sarılaraq qanlı cəbhələrə yola düşmüşdü. Milyonlarla insan gecə-gündüz çalışaraq döyüşən ordunun ərzaqla, silah-sursatla, geyim və digər zəruri vasitələrlə təmin olunmasında əsl fədakarlıq nümunələri göstərmişdir. Həmin dövrdə ittifaq miqyasında çıxarılan neftin 75 faizindən çoxu Bakıda hasil olunurdu ki, bu da tarixi qələbənin əldə edilməsində çox mühüm rol oynamışdır.

Rayonumuzun sakinləri də müharibə illərində öz hünər və rəşadətləri ilə fərqlənmişlər. Həmin dövrdə cəbhəyə yollanan 3800-dən çox həmyerlimizdən 1800-dən çoxu qəhrəmancasına həlak olmuşdur. 3 nəfər neftçalalı — Ağaşirin Cəfərov, Əlif Piriyev və İvan Ostapenko ən yüksək ada — Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Çoxlu sayda həmyerlimiz döyüşlərdə göstərdikləri şücaətlərə görə ölkənin müxtəlif orden və medalları ilə təltif edilmişdir.

Belə əlamətdar gündə biz müharibədə həlak olmuş neftçalalı döyüşçüləri və müharibədən sonra dünyalarını dəyişmiş veteranları da unutmur, onların əziz xatirəsini ehtiramla yad edirik.

**Əziz və hörmətli veteranlar!**

Bir daha Sizi 9 may — Qələbə günü münasibətilə ürəkdən təbrik edirəm. Hər birinizə möhkəm can sağlığı, uzun ömür və sevinc dolu xoş günlər arzulayıram.

**İsmayıl VƏLİYEV,**
**Neftçala Rayonu İcra Hakimiyyətinin başçısı**

# O təkcə görkəmli alim deyil, həm də şəfqətli insan, gözəl ana idi

İnsanı yaşadan yaxşı əməllərdir, cəmiyyət üçün, insanlar üçün gördüyü işlərdir. Belə xeyirxah əməllər, işlər yaşadır həmin insanları, onların başlarını el yanında da, dövlət yanında da daim uca edir. İnsanlar belə xeyirxah, cəmiyyətin rifahı, inkişafı üçün çalışan, iş görən şəxsləri həmişə böyük minnətdarlıq hissi ilə xatırlayırlar, bir-birindən şirin, yaddaqalan xatirələrini söyləyirlər, onları həmişə ehtiramla yad edirlər.



Xalqımızın, elimizin, obamızın dərin hörmətini qazanmış belə görkəmli şəxsiyyətlərdən biri də Zərifə xanım Əliyevadır. Bu şəfqətli xanımın mənəvi dünyası nə qədər geniş, zəngin olubsa, ictimai fəaliyyəti, xalqı, eli, obası qarşısındakı xidmətləri ondan da böyük olub. Azərbaycan Elmlər Akademiyasının akademiki, tibb elmləri doktoru, professor, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu oftalmologiya kafedrasının müdiri, Azərbaycan Elmlər Akademiyası Fiziologiya İnstitutunun laboratoriya rəhbəri, Azərbaycanın Əməkdar elm xadimi, Tibb Elmlər Akademiyası mükafatı laureatı və digər yüksək adları daşımaq, bir çox fəxri titulların sahibi olmaq hər adama nəsib olmur. Bütün bunlara nail olmaq üçün gərək gecə-gündüz çalışasan, böyük fədakarlıq göstərəsən. Zərifə xanım Əliyeva da belə edib, gecə-gündüz çalışıb, amalı uğrunda mübarizə aparıb. Bu işdə ona güc verən Vətən, xalq sevgisi, insanlara, cəmiyyətə xidmət etmək arzusu, istəyi olub. Buna dair yüzlərlə misal gətirmək olar.

Akademik Zərifə xanım Əliyeva görkəmli siyasi xadim kimi də tanınırdı. O, keçmiş Sovet İttifaqının Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini vəzifələrini böyük məsuliyyətlə yerinə yetirmişdir. Azərbaycanın dünyada sülhsevər ölkə kimi tanınması üçün böyük iş aparan Zərifə xanım dünyanın bütün tərəqqipərvər insanlarını Yer üzündə sülhün, əmin-amanlığın bərqərar olması üçün ardıcıl səylər göstərməyə çağırırdı. Akademik Zərifə xanım Əliyevanın yerinə yetirdiyi elmi-tədqiqat işləri, müəllifi olduğu fundamental əsərləri, illərin böyük zəhməti hesabına yetişdirdiyi yüksək ixtisaslı tibb mütəxəssisləri onun əbədiyaşarlığını təmin edən amillərdir. Buraya görkəmli alim, böyük insan kimi haqqında yazılan çoxlu sayda kitabları, məqalə və xatirələri də əlavə etsək onda akademik Zərifə Əliyeva daha uca zirvədə görünər.

Keçən əsrin ikinci yarısında Azərbaycanda neft və kimya sahəsinin inkişafı özü ilə bir sıra problemlər, fəsadlar da gətirmişdi. Bununla bağlı peşə xəstəliklərinin geniş vüsət alması adamları çox ciddi şəkildə narahat edirdi. Məhz belə bir vaxtda Zərifə xanımın biliyi, bacarığı çoxlu sayda insanların köməyinə çatdı, onları xəstəliyin ağrı-acılarından xilas etdi. Həmin illərdə kimya müəssisələrində çalışan fəhlələrin müalicəsində qazanılan zəngin təcrübə böyük maraq doğuran doktorluq dissertasiyasına çevriləndə buna heç kəs təəccüblənmədi, əksinə, qazanılan uğur mütəxəssis alimlər, elm adamları tərəfindən yüksək dəyərləndirildi. Bütövlükdə götürüldükdə Zərifə xanım öz biliyi, bacarığı ilə Azərbaycan elmini, xüsusilə tibb elmini xeyli dərəcədə zənginləşdirdi, bu sahəyə böyük yeniliklər gətirdi. Təsadüfi deyildir ki, vaxtı ilə gözlərinə işıq verdiyi insanlar, onların doğmaları, tibb mütəxəssisləri bu şəfqətli xanımın haqqında ürək dolusu danışırlar.



Elm, təhsil, səhiyyə sahələrində, ictimai fəaliyyətdə misilsiz xidmətləri, böyük uğurları olan Zərifə xanım Əliyeva eyni zamanda dünya şöhrətli bir şəxsiyyətin — Heydər Əlirza oğlu Əliyevin ömür-gün yoldaşı idi. Sevərək ailə quran bu dahi insanlar həm də gözəl ailə başçıları idilər. Onların birlikdə qurub-yaratdıqları bu isti ocaqda bir-birindən layiqli, dəyərli insanlar yetişmişdi. Hamısı da Vətənə, xalqa, elə, obaya bağlı insanlar. On dörd il ölkəmizə bacarıqla rəhbərlik edərək ona böyük uğurlar, nailiyyətlər qazandıran, Azərbaycana şöhrət gətirən Prezident İlham Əliyev də öz işığını, nurunu bu nəcib ailədən, bu ocaqdan almışdır. Şübhəsiz ki, Zərifə xanımın böyük ana qayğısı sayəsində. Övladlarının layiqli təlim-tərbiyəsi üçün o da əlindən gələni əsirgəməmişdir.

Zərifə xanım Əliyeva bütün xüsusiyyətlərinə, keyfiyyətlərinə görə böyük insan idi. Belə insanı unutmaq, yaddan çıxarmaq mümkün deyil. Elə buna görə də bu şəfqətli xanım daim anılır, minnətdarlıq hissilə yad edilir. Anadan olmasının ildönümlərində keçirilən silsilə tədbirlər xüsusilə yaddaqalan olur. Bu il də belə oldu. Onun işıqlı xatirəsi hər yerə ehtiramla anıldı, yad edildi. Rayonun məktəblərində, mədəni-maarif müəssisələrində, səhiyyə təşkilatlarında və digər yerlərdə keçirilən anım tədbirlərində Zərifə xanımın mənalı ömrü bir daha yenidən vərəqləndi, Vətəni, xalqı qarşısındakı xidmətlərindən geniş söhbət açıldı, tibb elminə gətirdiyi yeniliklər dilə gətirildi. Qeyd olundu ki, o bütün bunları öz zəhmətilə, zəkası ilə, elinə, obasına bağlılığı ilə qazanmışdır. Buna görə zaman keçsə də Zərifə xanım heç vaxt unudulmayacaq, daim bizimlə olacaq, gələcək nəsillər Vətəni sevməyi, xalqa, millətə xidmət etməyi ondan öyrənəcəklər.

**Tükəzban HƏSƏNOVA,**
**müəllim, Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# YÜKSƏK TƏŞKİLATÇILIQ NÜMUNƏSİ

Mehriban xanım Əliyevanın ictimai fəaliyyəti barədə düşünəndə, söhbət açmaq istəyəndə gözlərimizin önündə böyük bir panoram canlanır. Bu fəaliyyət o qədər geniş, o qədər əhatəlidir ki, bununla bağlı saatlarla, günlərlə danışmaq olar. Hamısının da arxasında xalqına, millətinə xidmət etmək amalı durur. Mehriban xanım Əliyeva ulu öndərin adını daşıyan Heydər Əliyev Fondu kimi böyük bir təşkilatı yaradanda da bu missiyanı düşünmüşdü və o, bu şərəfli missiyanın öhdəsindən şərəflə gəldi, ona olan inamı, etimadı layiqincə doğrultdu. Bu gün Heydər Əliyev Fondu nəinki ölkəmizdə, dünyada tanınan, nüfuz qazanan təşkilatlardandır. Bütün bu uğurlar, nailiyyətlər isə Mehriban xanımın genişmiqyaslı fəaliyyətinin, yüksək intellektual səviyyəsinin, istedad və bacarığının nəticəsidir. Belə olmasaydı bu şəfqətli xanım UNESKO və İSESKO-nun xoşməramlı səfiri kimi çətin vəzifənin öhdəsindən layiqincə gələ bilməzdi. Özünün işgüzarlığı, yüksək insani keyfiyyətləri ilə seçilən, fərqlənən Mehriban xanım, eyni zamanda yüksək təşkilatçılığı ilə diqqəti çəkən bir insandır.



Xalqımız bu yüksək təşkilatçılığı ilk dəfə “Eurovision” mahnı yarışında gördü. 2012-ci ildə ölkəmizin ev sahibliyi etdiyi bu beynəlxalq müsabiqənin yüksək səviyyədə təşkil olunması böyük məsuliyyət tələb edirdi. Amma Azərbaycan bu çətin vəzifənin öhdəsindən bacarıqla gəldi. Yarışları izləyən xarici qonaqlar qısa vaxtda qurulub yaradılanlardan, xalqımızın qonaqpərvərliyindən heyran qaldılar, özləri ilə ölkələrinə zəngin təəssüratlar apardılar. Ona görə ki, Mehriban xanımın rəhbərlik etdiyi təşkilat komitəsi üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlmişdi, beynəlxalq tədbir dünyaya nümunə ola biləcək bir səviyyədə təşkil olunmuşdu.

2015-ci ildə isə dünya Bakıda keçirilən daha bir möhtəşəm beynəlxalq idman tədbirinin sevincini yaşadı. Həyata ilk vəsiqəni alan Birinci Avropa Oyunlarını yüksək səviyyədə təşkil etmək də asan deyildi. Oyunlara hazırlıq çox böyük məsuliyyətlə hazırlandığından heç bir çətinlik baş vermədi, təkcə Azərbaycan, Azərbaycan xalqı deyil, bütün dünya möhtəşəm bir idman bayramının sevincini yaşadı. Azərbaycan, Azərbaycan xalqı kimliyini, nəyə qadir olduğunu bir daha əyani şəkildə ortaya qoya bildi. Bu möhtəşəm yarışlarda 21 qızıl, 15 gümüş, 20 bürünc medal qazanan idmançılarımız adlarını idman tarixinə qızıl hərflərlə yazdılar. Birinci Avropa Oyunlarında qalib gəlmiş idmançılar, onların məşqçiləri, idman ictimaiyyətinin nümayəndələri və xarici tərəfdaşlarla keçirilən görüşdə Prezident İlham Əliyev belə dedi: “Mən bu gün Təşkilat Komitəsinin, ... Təşkilat Komitəsinə rəhbərlik etmiş Mehriban Əliyevanın böyük fəaliyyətini xüsusilə yüksək qiymətləndirirəm. O, bu oyunların keçirilməsinə çox böyük töhfələr vermişdir. Deyə bilərəm ki, bu oyunların bu səviyyədə keçirilməsinə öz canını qoymuşdur.” Sonra Prezident İlham Əliyev salondakıların alqışları altında ölkənin ən ali mükafatını — “Heydər Əliyev” ordenini Mehriban xanıma təqdim etdi.

Bu adi bir şəxsin deyil, dövlət başçısının qiyməti idi. Bundan sevinməmək, qürur hissi keçirməmək mümkün deyildi. Əməyinə verilən yüksək qiymətə görə minnətdarlığını bildirən “Bakı-2015” İlk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva dedi: “Mən idman leksikasından istifadə etsəm deyə bilərəm ki, bu 17 gün ərzində Azərbaycan xalqı bir komanda idi və Siz bu komandanın şərəfli komandanı idiniz. Belə olan halda, əlbəttə, qalib gəlməmək mükün deyildi. Vətənimizə, doğma Azərbaycanımıza xidmət etmək ən böyük şərəfdir və xidmətimizin nəticələrini görüb yaşamaq ən böyük xoşbəxtlikdir.

Cənab Prezident, biz hər birimiz ölkəmizin əsgəriyik və Azərbaycanın gələcəyi naminə daha da tam gücümüzlə xidmət etməyə hazırıq.”

Bu təkcə söz deyildir, sınaqlardan çıxaraq təsdiqlənmiş, həyat vəsiqəsi qazanmış əməldir. Vətəni və xalqı qarşısındakı müqəddəs borcunu dərindən dərk edən Mehriban xanım Əliyeva ona tapşırılan, etibar edilən işlərin, vəzifələrin öhdəsindən həmişə bacarıqla gəlib, Azərbaycan qadınının şərəfini, ləyaqətini uca tutaraq onu xaricdə layiqincə təmsil edib. Mehriban xanım Əliyeva yüksək dövlət postuna — ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunanda da onun Vətəni və xalqı qarşısındakı böyük xidmətləri nəzərə alınmışdı.

İndi ölkəmiz daha bir sınaq qarşısındadır. Sabah dünya ictimaiyyəti, idmansevərlər Bakıda keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasiminin şahidi olacaqlar. Bu oyunlarda tələb olunan bütün hazırlıq işlərini də Mehriban xanımın rəhbərlik etdiyi Təşkilat Komitəsi həyata keçirib. Özü də yüksək səviyyədə, ən yüksək standartlara uyğun şəkildə, milli koloritlə. Deməli, idmansevərlər yeni gözəl bir bayram sevinci yaşayacaqlarına əmindirlər.

**Habil ƏSƏDOV**

BAKU 2017
4th Islamic Solidarity Games

# Fəxr et Azərbaycan — İslamiadanın yeni tarixini yaradırıq

AZERBAIJAN

Çiçəklənən gənc respublikamızın ən yeni tarixinin hər ili bir əlamətdar, möhtəşəm tədbirlərlə yaddaşlara yazılır. İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi də belə tədbirlərdəndir.

Belə möhtəşəm oyunların Azərbaycana həvalə olunması ölkəmizə olan beynəlxalq inamdan, etibardan irəli gəlir. Bu gün islam dünyasında nələr baş verir, hansı proseslər gedir, göz önündədir. Ən güclü, varlı islam ölkələrinin sabitliyi alt-üst olub, qanlı terrorlar, müharibələr baş alıb gedir. O hadisələrin fonunda IV İslam Həmrəyliyi Oyunlaının keçirilməsi üçün Azərbaycanın, Bakının məkan seçilməsi heç də təsadüfi deyil. Bu oyunları bütün dünya izləyəcək, bütün sülhsevər bəşəriyyətin gözləri ölkəmizə, onun paytaxtına dikiləcək. Ölkəmizdəki yaşam modeli, beynəlmiləl tolerantlıq bir daha həm dostlarımızın, həm də düşmənlərimizin diqqət mərkəzində olacaq.



Neçə vaxtdır oyunların — bu möhtəşəm idman hadisəsinin təntənəsi ölkəmizi gəzməkdədir. “Xəzərdən başlayan səyahət” tədbirləri marşrutunda 37 günlük səfər, 16 məkan və 3000 kilometrdən çox məsafə nəzərdə tutulmuşdur. I Avropa Oyunları zamanı olduğu kimi biz yenə də möhtəşəm təntənələrin şahidi olacağıq. Bu gözəl, sülhsevər idman hadisəsi də həyatımızın faktına çevriləcək. Gəlin etiraf edək ki, belə tarixi mənzərələrin şahidi olmaq hər ölkəyə, hər xalqa nəsib olmur. Bunun üçün biz ilk növbədə ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi aydın və işıqlı siyasi xəttə, bu xətti uğurla, ardıcıllıqla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevə minnətdar olmalıyıq. İslam Həmrəyliyi Oyunlarının su səyahətinə start verilərkən möhtərəm Prezidentimiz öz çıxışında bu böyük tarixi hadisəyə yüksək qiymət verərək belə dedi: “IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi bizim üçün böyük şərəfdir. Biz bunu İslam ölkələrinin Azərbaycana olan hörmətinin və inamının təzahürü kimi qəbul edirik. Eyni zamanda, bu, bizim üçün böyük məsuliyyətdir və demək olar ki, bütün hazırlıq işləri başa çatıb. Biz oyunları qəbul etmək üçün tam hazırıq.”




Bildiyimiz kimi İslam Həmrəyliyi Oyunlarının rəmzi sudur. Həyatı susuz təsəvvür etmək qeyri-mümkündür. Su aydınlıq, təmizlik, saflıq, şəffaflıq simvoludur. İnanırıq ki, bu möhtəşəm idman hadisəsini də sevinc içində qeyd edəcəyik, Azərbaycan idmançıları yenə özlərinin uğurlu çıxışları, parlaq qələbələri ilə bizi sevindirəcək, üçrəngli bayrağımız ucalacaq, əzəmətli dövlət himnimiz səslənəcək, ürəklər qürur və iftixar hissi ilə dolacaqdır.

**Zabil PƏRVİZ**

# Qələbə bayramı bu dəfə də izdihamlı keçdi

Həyatda çox ağır hadisələr baş verir, çox qanlı-qadalı günlər yaşanır. Ancaq vaxt, zaman onların çoxunu tədricən unutdurur, insanların yaddaşından



silib aparır. Amma elə ağır hadisələr də baş verir ki, yaddaşlara əbədilik həkk olunur, zaman-zaman anılır, xatırlanır. 1941-45-ci illərin Böyük Vətən müha-



ribəsi də məhz bəşər tarixinə əbədi həkk olunmuş belə qanlı hadisələrdən biridir. Buna görə aradan 70 ildən artıq bir vaxt keçsə də, yenə unudulmur, yaddan çıxmır, hər il o hadisələrin başa çatdığı gün böyük Qələbə bayramı kimi qeyd olunur.

Böyük Vətən müharibəsi doğrudan da törətdiyi dağıntılara, insan tələfatına görə ən böyük müharibə idi. Dünya ağalığı iddiasına düşən Hitler yaxşı başa düşürdü ki, Sovet İttifaqını diz çökdürüb məğlub etmədən məqsədinə çata bilməyəcək. Ona görə də Avropanı özünə tabe etdirdikdən sonra əsas hərbi qüvvələrini bu istiqamətə yönəltdi. İşlənib hazırlanmış "Barbarossa planı"na əsasən alman qoşunları az vaxt ərzində Sovet Ordusunun qərbdəki qüvvələrini parçalamalı, ölkənin içərilərinə irəliləməli, Arxangelsk-Həştərxan xəttinə çıxmalı idilər. Ancaq onlar məqsədlərinə çata bilmədilər, ağır məğlubiyyətə uğradılar.

Bu böyük qələbədə Azərbaycanın, bizim Neftçala rayonunun da layiqli payı olub. O vaxt SSRİ-də çıxarılan neftin 75-80 faizini, təyyarə benzininin 90 faizini, bir çox yanacaqların və xüsusi təyinatlı sürtkü yağlarının hamısını respublikamız istehsal edirdi. Bununla yanaşı Bakı zavodlarında 130 növ silah, çoxlu sayda döyüş sursatı istehsal olunurdu.

Müharibənin ilk üç günü ərzində Azərbaycandan ordu sıralarına 40 mindən çox könüllü yola düşmüşdü. Sonrakı dövrdə onların sayı daha da artdı. Ön cəbhəyə yola düşənlərin sırasında neftçalalılar da az deyildi. Faşizmə qarşı qanlı döyüşlərdə onlar da mərdliklə döyüşmüşdülər. Üç həmyerlimizin — Əlif Piriyevin, Ağaşirin Cəfərovun, İvan Ostapenkonun ən yüksək ada — Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi, Məmmədağa Qorçiyevin, Hüseynağa Ramazanovun, Əlisəfa Gülməmmədovun, Əlihüseyn Zeynalovun, Mirzağa Süleymanovun, Əlixan Əliyevin və yüzlərlə başqalarının ölkənin orden və medalları ilə təltif olunmaları neftçalalıların Vətən sevgisinin, döyüş andına sədaqətlərinin nəticəsi idi.

Belə qəhrəmanlara hörmət əbədidir. Amma AXC-Müsavat hakimiyyəti dövründə bu həqiqət unuduldu, oddan, alovdan keçmiş müharibə veteranlarına arxa çevrildi, Qələbə bayramları qeyd olunmadı. Yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra buna son qoyuldu, Böyük Vətən müharibəsi veteranlarının haqları, hüquqları özlərinə qaytarıldı.

Müharibə veteranlarına qayğı və diqqət bu gün də yüksək səviyyədədir. Prezident İlham Əliyev Böyük Vətən müharibəsi veteranlarına daim sayğı ilə yanaşır, onların maddi-məişət şəraitlərini durmadan yaxşılaşdırır. Yeri gəlmişkən deyək ki, 1941-1945-ci illər müharibəsi iştirakçıları üçün birdəfəlik maddi yardımların MDB üzrə ən yüksək həddi məhz ölkəmizdə ayrılıb.

Hər il olduğu kimi rayonumuzda Qələbə bayramı bu il də gur, izdihamlı keçdi. Böyük Vətən müharibəsində həlak olmuş neftçalalıların şərəfinə ucaldılmış abidənin qarşısına çoxlu sayda adam toplaşmışdı. Tədbir iştirakçıları ömürlərinin ixtiyar çağlarını yaşayan veteranları təbrik edir, onlara uzun ömür, can sağlığı diləyirdilər. Abidə önünə gələn rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev və rayonun rəhbər işçiləri veteranlarla səmimi görüşdülər, əziz bayramları münasibətilə onları ürəkdən təbrik etdilər, qayğı və problemləri ilə maraqlandılar.

Sonra rayon icra hakimiyyəti adından abidə önünə əklil qoyuldu. Mərasim iştirakçıları buraya tər çiçəklər düzdülər. Rayon rəhbəri və tədbir iştirakçıları Sovet İttifaqı Qəhrəmanları Ağaşirin Cəfərovun, Əlif Piriyevin, İvan Ostapenkonun xatirəsini də ehtiramla yad etdilər, onların büstləri önünə də tər çiçəklər düzdülər. Veteranlarla çoxlu xatirə şəkilləri çəkdirildi.

Təntənəli mərasimdən sonra rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyev, rayon prokuroru Aydın Əliyev, rayon məhkəməsinin sədri Elməddin İbrahimov, rayon polis şöbəsinin rəisi Vüsal Şəbəndəyev, rayon səfərbərlik və hərbi xidmətə çağırış şöbəsinin rəisi Turan Əliyev, rayon mühafizə bölməsinin rəisi Əli Babayev və dəgər şəxslər şərəfli döyüş yolu keçmiş rayon veteranlar şurasının sədri Əlixan



Əliyevin ev muzeyində olmuşlar. Muzeylə tanışlıq onlarda zəngin təəssürat yaratmışdır. Rayon rəhbəri və qonaqlar veteranla səmimi söhbət etmiş, qayğı və




problemləri ilə maraqlanmışlar. Əlixan Əliyev göstərdiyi qayğı və diqqətə görə Prezident İlham Əliyevə, rayon rəhbərliyinə səmimi minnətdarlığını bildirmişdir.

**A.MİKAYILOV**

## ZƏFƏR MARŞI

*Aprel şəhidlərinin*
*əziz xatirəsinə*

**İgidlərim, hay verin,**
**Vətən çağırır bizi.**
**Əldə silah — irəli!**
**Torpaq çağırır bizi.**
**Şığıyaq qartal kimi**
**Namərd yağı üstünə.**
**Qovaq torpağımızdan,**
**Qeyrət çağırır bizi.**
**Gözünü ovub tökək**
**Mənfur qəsbkarların.**
**Kəsək xain əlləri,**
**Babək çağırır bizi.**
**Şanlı aprel zəfəri**
**Qoy dərs olsun düşmənə.**
**Şaqqıldasın silahlar,**
**Meydan çağırır bizi.**
**Bayraq sancaq Şuşaya,**
**Laçına, Kəlbəcərə.**
**Zəfəri bayram edən**
**Zaman çağırır bizi.**
**Bu qan yerdə qalarsa,**
**İnciyər şəhid ruhu.**
**Qisasa, qələbəyə**
**Ruhlar çağırır bizi.**
**Dövlətimin qüdrəti**
**Bütün cahana bəlli.**
**Ön cərgədə durmağa**
**Dünya çağırır bizi.**

**Alim ƏLİYEV**

# Beynəlxalq Ailə Günü qeyd edilir

Ailə haqqında çox deyilib, çox yazılıb. Bu heç də təsadüfi deyildir. Cəmiyyəti ailəsiz təsəvvür etmək mümkün deyil. Dövlət məhz ailələr üzərində bərqərar olduğundan onun möhkəmliyi, dayanıqlığı cəmiyyəti həmişə düşündürən, narahat edən məsələlərdəndir. Boşananların sayının durmadan artdığı, ailə münaqişələrinin genişləndiyi bir vaxtda bu sahəyə diqqətin artırılması xüsusilə böyük əhəmiyyət daşıyır. Dünyanın bir nömrəli beynəlxalq qurumunun — Birləşmiş Millətlər Təşkilatının bunu önə çəkməsi də məsələnin vacibliyindən, aktuallığından irəli gəlir. Həmin təşkilatın Baş Assambleyasının 20 sentyabr 1993-cü il tarixli qətnaməsi ilə 15 mayın Beynəlxalq Ailə Günü elan olunması da bununla əlaqədardır. O vaxtdan başlayaraq dünyanın hər yerində bu gün təntənəli şəkildə qeyd edilir, bir-birindən maraqlı, rəngarəng tədbirlər təşkil olunur.

BMT-nin müvafiq qətnaməsini əsas götürən respublika Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və digər müvafiq qurumlar da əlamətdar günlə bağlı özlərinin tədbirlər planlarını hazırlayaraq məktub vasitəsi ilə yerli təşkilatlara ünvalayırlar. Şübhəsiz, rayonumuz da bu vacib işdən kənarda qala bilməz. Hər il olduğu kimi rayon icra hakimiyyətində bu il də geniş tədbirlər planı tərtib olunaraq görüləcək işlər hərtərəfli müəyyənləşdirilmişdir. Bu işlərin əksəriyyəti rayon təhsil şöbəsində, rayon mərkəzi xəstəxanasında, rayon gənclər və idman idarəsində və digər müvafiq təşkilatlarda həyata keçirildiyindən onlara məktublar və tövsiyələr də göndərilmişdir.

Hər bir tədbir o vaxt səmərəli olur ki, insanlar keçiriləcək bu tədbirlərlə qabaqcadan məlumatlandırılsınlar, mövzu onlara bəlli olsun. "15 may Beynəlxalq Ailə Günüdür", "Sağlam ailə möhkəm cəmiyyətin təməlidir" sözləri yazılmış transparantların, banerlərin hazırlanması da elə bu məqsədə xidmət edir.



Vətənimizə layiq vətəndaşların yetişdirilməsində ailənin rolu danılmazdır. "Ailədə baş verə biləcək münaqişələrdən necə qorunmalı", "Ailədə yaranan problemlər və onların həlli yolları", "Milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması bu gün dünənkindən daha çox əhəmiyyət daşıyır", "Yeniyetməlik dövrünün çətinlikləri və onların həlli yolları", "Uşaqlar xoşbəxt sabahımızdır" mövzularında oxunan mühazirələr, aparılan səmimi söhbətlər maraqla qarşılandığından keçirilən tədbirlərdə valideynlər də yaxından iştirak etmişlər. "Sağlam ailə sağlam gələcəyin təminatıdır", "Mən öz valideynlərimlə fəxr edirəm", "Mən və ailəm" mövzularındakı inşa yazılarının hazırlanmasında isə məktəblilər, şagirdlər fəallıq göstərmişlər. Onların bu yazılarını oxuyanda hiss edirsən ki, qəlbi Vətən eşqi ilə döyünən gənclər yetişir. Bu hər birimizi sevindirməyə bilməz.

İnsanların, xüsusilə uşaq və gənclərin sağlamlıqları, fiziki hazırlıqları da daim diqqət mərkəzində olmuşdur. Bu iş əsasən rayon mərkəzi xəstəxanasının, rayon gənclər və idman idarəsinin üzərinə düşdüyündən bununla bağlı tədbirləri də əsasən onlar həyata keçirmişlər. Əlil uşaqları olan ailələrə mənəvi dəstək olan "Sağlam bədəndə sağlam ruh olar", "Gələcək hamınındır", "Öz sağlamlığına arxayın ol" mövzularındakı seminar və dəyirmi masalar xüsusilə böyük maraq doğurmuş, yaddaqalan olmuşdur.

Şübhəsiz, belə mühüm tədbirdə əlamətdar günün — Beynəlxalq Ailə Gününün kim tərəfindən necə yaranması, hansı məqsədi daşıması və digər məsələlər də unudula bilməzdi. Bütün tədbir boyu bu məsələlərin öyrənilməsinə xüsusi önəm verilmiş, konkret faktlar gətirilmişdir.

**Fərhad AĞAYEV**

# Tibbi müayinələr başa çatır

2014-cü ildən ölkəmizdə çox gözəl bir aksiya həyata keçirilir, sağlamlıq aksiyası. Respublikamızda əhalinin sağlamlığının qorunması ilə əlaqədar son illər ayrı-ayrı regionlarda, rayonlarda müasir diaqnostika mərkəzləri, xəstəxanalar və digər sağlamlıq müəssisələri istifadəyə verilsə də, Prezident İlham Əliyevin tapşırığına əsasən əhalinin başdan-başa tibbi profilaktik müayinələrdən keçirilməsi xüsusilə böyük razılığa səbəb olmuşdur. Ötən bir neçə il ərzində ölkəmizdə yüz minlərlə insanın bu müayinələrdən yararlanaraq öz sağlamlıq durumları barədə hərtərəfli məlumat əldə etmələri müalicələrin səmərəsini də artırır, ağırlaşma hallarının yaranmasına imkan vermir.



Həmin vaxtdan başlayaraq bu iş rayonumuzda da daim diqqət mərkəzində olmuşdur. Tibb müəssisələrində həyata keçirilən sağlamlaşdırıcı tədbirlərilə əlaqədar rayon mətbuatı olaraq biz də müntəzəm yazılar dərc etmişik, müayinələri əyani nümayiş etdirən şəkillər vermişik. Fevral ayından başlanan bu ilki müayinələr də uğurla başa çatmaq üzrədir. Bununla əlaqədar rayon mərkəzi xəstəxanasının baş həkimi Telman Zahidov dedi:

— Dövlət başçısı cənab İlham Əliyevin əhalinin başdan-başa tibbi profilaktik müayinələrdən keçirilməsi ilə əlaqədar verdyi tapşırıq xəstəxanamızda fəallığın, işgüzarlığın qat-qat artmasına səbəb olmuşdur. Biz bu işin vaxtında, keyfiyyətlə həyata keçirilməsi üçün ən təcrübəli, ən bacarıqlı həkim və tibb işçilərimizi cəlb etmişik. Onlar lazım olan avadanlıqlarla, tibbi vasitələrlə vaxtlı-vaxtında təmin olunmuşlar. Neftçala şəhəri ilə yanaşı bu vacib iş ayrı-ayrı inzibati ərazilərdə, kənd və qəsəbələrdə də yüksək səviyyədə təşkil olunmuşdur. Bununla əlaqədar təşkil olunan həkim briqadaları üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirlər.

Sevincini gizlədə bilməyən baş həkim yaxın vaxtlarda rayon əhalisinə göstərilən tibbi xidmətin keyfiyyətinin xüsusilə yüksələcəyini də diqqətə çatdırdı. Qeyd etdi ki, neçə vaxtdan bəri əsaslı təmir olunaraq tamamilə yenidən qurulan, ən müasir tibbi avadanlıqlarla, müasir diaqnostika vasitələrilə təmin olunan rayon mərkəzi xəstəxanası öz qapılarını sakinlərin üzünə açdıqdan sonra xəstələrin daha ora-bura getmələrinə ehtiyac qalmayacaq. Onlar dəqiq müayinəni də, müalicəni də elə burda alacaqlar. Buna görə baş həkim rayonun bütün tibb işçilərinin adından möhtərəm Prezidentimiz cənab İlham Əliyevə dərin minnətdarlığını bildirdi. Bu işlərin yerinə yetirilməsi üçün hörmətli nazirin və rayon rəhbərliyinin də səylərini əsirgəmədiklərini vurğuladı.



Öyrəndik ki, indiyə kimi 60 min nəfərdən çox rayon əhalsi tibbi profilaktik müayinələrdən keçmişdir. Onlardan 1585 nəfəri ambulator, 13 nəfəri stasionar müalicələrə cəlb olunmuş, 16 nəfər daha dəqiq, daha ixtisaslı müayinə və müalicə olunmaq üçün Bakı şəhərindəki ayrı-ayrı klinikalara göndərilmişdir.

Tibbi profilaktik müayinələr davam edir.

**A.İMANLI**

# Ümumrayon iməcilikləri genişlənir

"Yaşıllıq həyatdır, sağlamlıqdır" sözlrərini dönə-dönə təkrarlasaq da, deməyə yenə ehtiyac var. Ona görə ki, yaşıllıqların qorunması, mühafizə edilməsi, durmadan genişləndirilməsi bu gün dünənkindən daha vacibdir. Meşələrin kütləvi şəkildə qırıldığı, havanın sənaye tullantıları, zəhərli-kimyəvi maddələrlə çirkəndirildiyi bir vaxtda bu daha ciddi zərurətə çevrilib. Bir ağacın qırılmasını bədənin bir hissəsinin kəsilməsinə bənzədən ulu öndər Heydər Əliyev təkcə Azərbaycan xalqını deyil, bütün dünyanı, bəşəriyyəti yaşıllığı qorumağa çağırırdı. Bu günlərdə Prezident İlham Əliyevin Bakının Yasamal rayonunda ağacları kütləvi şəkildə qıraraq yerində bina inşa edən sahibkara qarşı göstərdiyi qətiyyət də belələrinə qarşı çox ciddi bir mesajdır. Son illər Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın rəhbərlik etdiyi İDEA İctimai Birliyinin təşəbbüsü ilə respublikamızın hər yerində həyata keçirilən ağacəkmə aksiyalarına qoşulanların sayının durmadan artması çox sevindiricidir.



Baharın gəldiyi, təbiətin oyandığı, insanların çölə, tarlaya üz tutduğu bir vaxtda ağac əkib bağ salmamaq, yaşıllıqların genişləndirilməsinin qayğısına qalmamaq mümkün deyil. Novruzdan bəri ölkəmizin hər yerində yaşıllaşdırma aksiyalarının keçirilməsi, çoxlu sayda yeni ağacların, gül kollarının əkilməsi də bununla bağlıdır. Sevindiricidir ki, rayonumuz da bu tədbirlərdən, aksiyalardan kənarda qalmır. Burada hər həftənin şənbə günlərində iməciliklərin keçirilməsi artıq ənənə halını almışdır. Görüləcək işlər qabaqcadan müəyyənləşdirildiyindən, yerlər ayrıldığından heç kim kənarda qalmaq istəmir, keçirilən iməciliklərdə, yaşıllaşdırma aksiyalarında daha fəal iştirak etməyə çalışır. Bunun nəticəsidir ki, son vaxtlar rayonun ayrı-ayrı inzibati ərazilərində, kənd və qəsəbələrdə minlərlə yeni ağaclar əkilmişdir.



Rayon mərkəzində, Neftçala şəhərində görülən işlər xüsusilə sevindiricidir. Bir neçə il bundan qabağa kimi xəstəlik mənbəyinə çevrilən, ətrafa üfunət yayan "Axmaz" gölü qazılaraq çirkabdan təmizlənəndə şəhər sakinləri necə sevinmişdilərsə, indi gölün ətrafı abadlaşdırılanda, buraya ağaclar əkiləndə ondan da çox sevinirlər. Şəhərin Heydər Əliyev prospektində, ayrı-ayrı küçə və meydanlarda, bağ və parklarda da az iş görülməmişdir. İllər keçəcək, bu ağaclar boy ataraq böyüyüəndə, yaşıllaşanda yəqin ki, onları əkib-becərənlərə hamı ürəkdən sağ ol deyəcək.

**M.ƏHMƏDOV**

# 2016 - cı ildə rayonumuzda əhaliyə göstərilən ödənişli xidmətlər

Rayonun iqtisadiyyatının bir çox sahələrində olduğu kimi, əhaliyə göstərilən ödənişli xidmətlər sahəsində də sabit inkişaf davam etmişdir.

Belə ki, 2016- cı il ərzində rayon əhalisinə 27848,0 min manatlıq ödənişli xidmət göstərilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə faktiki qiymətlərdə 1773,0 min manat və ya 6,8 faiz çox, müqayisəli qiymətlərlə isə 246,4 min manat və ya 0,9 faiz çoxdur. Rayonda göstərilmiş ödənişli xidmətlərin həcminin xüsusi çəkisi respublika səviyyəsinin 0,36 faizini, aran iqtisadi rayonu səviyyəsinin isə 3,5 faizini təşkil etmişdir.

Hesabat dövründə hər bir rayon sakini il ərzində orta hesabla 323,2 manatlıq müxtəlif ödənişli xidmətlərdən istifadə etmişdir ki, bu da əvvəlki ilə nisbətən 17,7 manat çoxdur. 2016-cı il ərzində əhaliyə göstərilən ödənişli xidmətlərin həcmində fiziki şəxslərin xüsusi çəkisi 82,9 faiz, rəsmi qeydiyyatdan keçmiş dövlət mülkiyyəti müəssisələrinin xüsusi çəkisi 16,7 faiz, rəsmi qeydiyyatdan keçmiş qeyri-dövlət mülkiyyəti müəssisələrinin xüsusi çəkisi isə 0,4 faiz təşkil etmişdir.

Hesabat dövründə əhaliyə göstərilən ödənişli xidmətlərin həcmində (məişət xidməti daxil olmaqla) qeyri-dövlət mülkiyyəti müəssisələrinin (fiziki şəxslər də daxil olmaqla) həcmi 23194,1 min manat, xüsusi çəkisi isə 83,3 faiz təşkil etmişdir.

2016-cı il ərzində əhaliyə göstərilən ödənişli xidmətlərin həcmində (məişət xidməti daxil olmaqla) dövlət mülkiyyətli müəssisələrin payı 4653,9 min manat və ya 16,7 faiz olmuşdur ki, bu da ötən ilin müvafiq dövründən faktiki qiymətlərlə 12,7 faiz və ya 523,9 min manat, müqayisəli qiymətlərlə isə 6,5 faiz və ya 268,8 min manat çoxdur.

Hüquqi şəxslər tərəfindən 2016-cı il ərzində məişət xidməti də daxil olmaqla əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi 4759,2 min manat olmuşdur ki, bu da keçən ilə nisbətən faktiki qiymətlərlə 14,5 faiz və ya 602,8 min manat, müqayisəli qiymətlərlə isə 8,2 faiz və ya 341,9 min manat çox deməkdir. Digər sahələrin (sənaye, kənd təsərrüfatı, tikinti, sosial və s.) müəssisələri tərəfindən hesabat dövründə əhaliyə 84,5 min manatlıq ödənişli xidmət göstərilmişdir ki, bu da 2015-ci ilə nisbətən faktiki qiymətlərlə 64,3 min manat və ya 4,2 dəfə, müqayisəli qiymətlərlə isə 59,7 min manat və ya 2,9 dəfə çoxdur. Fiziki şəxslər tərəfindən hesabat dövründə əhaliyə 23088,8 min manatlıq ödənişli xidmətlər göstərilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə 5,3 faiz və ya 1170,2 min manat çox, müqayisəli qiymətlərlə isə 0,4 faiz və ya 95,5 min manat az deməkdir.

Hesabat ili ərzində rayon əhalisinə 4145,0 min manatlıq məişət xidməti göstərilmişdir. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 205,0 min manat və ya 5,2 faiz, müqayisəli qiymətlərlə isə 41,7 min manat və ya 1,1 faiz çoxdur. Məişət xidməti ödənişli xidmətin ümumi həcminin 14,9 faizini təşkil edir. Məişət xidmətinin həcminin 8,0 min manatı və ya 0,2 faizi hüquqi şəxslərin müəssisələri, 4137,0 min manatı və ya 99,8 faizi hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fiziki şəxslər hesabına formalaşmışdır. Bunun başlıca səbəblərindən biri məişət sahəsində fiziki şəxslərin fəaliyyətinin daha da inkişaf etməsidir.

**T.MƏNƏFOVA**
**rayon statistika idarəsi rəisinin müavini**

# Kənd təsərrüfatı – həyatımızın, yaşayışımızın əsas təminatı

## Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

İqtisadiyyatın səmərəliliyinin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində qeyri-neft sektorunun inkişafının təmin edilməsi dövlətimizin əsas iqtisadi prioritetlərindəndir. Bu məqsədlə ölkədə aparılan uğurlu iqtisadi siyasət nəticəsində iqtisadiyyatın diversifikasiyasına nail olunması ilə yanaşı, qeyri-neft sektorunun da ümumi daxili məhsulda xüsusi çəkisi nəzərə çarpacaq dərəcədə artmışdır.

Ölkənin sosial-iqtisadi həyatında xüsusi əhəmiyyət kəsb etdiyi üçün qeyri-neft sektorunun prioritet sahələrindən olan kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektoru ötən dövr ərzində iqtisadiyyatın əsas sektorlarından biri kimi müəyyənləşdirilmiş və görülmüş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda bu sektorun inkişafı üçün əlverişli şərait yaradılmışdır.

Kənd təsərrüfatının ənənəvi sahələrindən olan pambıqçılığın, tütünçülüyün, baramaçılığın sürətli inkişafı, kənd təsərrüfatı məhsullarına tələbatın ödənilməsi, emal müəssisələrinin xammal təminatının yaxşılaşdırılması və emal sənayesinin genişlənməsi istiqamətində dövlət dəstəyinin gücləndirilməsi ilə əlaqədar bir sıra hüquqi aktlar, o cümlədən dövlət proqramları qəbul edilmişdir. Eləcə də ölkənin ixrac potensialının yüksəldilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların innovativ qabiliyyətlərinin artırılması, yüksək məhsuldarlığın əldə olunması, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı prosesində intensiv metodların geniş tətbiqində istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiyanın formalaşmasında önəmli rolu olan aqroparkların yaradılması istiqamətində mühüm addımlar atılmışdır.

Lakin yuxarıda qeyd edilənlərlə yanaşı, dayanıqlı inkişafın təmin edilməsi, gələcəkdə maliyyə resurslarının diversifikasiyasının təmin edilməsi, rəqabət qabiliyyətinin artırılması məqsədilə istehsalçıların maliyyə resursları ilə təminat səviyyəsinin yüksəldilməsi və bu sahədə qarşıya çıxacaq risklərin düzgün qiymətləndirilməsi üzrə mexanizmlərin təkmilləşdirilməsi vacib məsələlərdəndir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin "Maliyyəyə çıxışın asanlaşdırılması" sərlövhəli 3-cü strateji hədəfində nəzərdə tutulmuş prioritetlərdə əhatə edilmiş tədbirlərin həyata keçirilməsini sürətləndirmək zərurəti yaranmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq kənd təsərrüfatı sahəsi üzrə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi, aqrar sığortanın inkişaf etdirilməsi və aqrar sahəyə investisiya qoyuluşlarının təşviqi məqsədilə qərara alıram:

1.Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası:

1.1.Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin "Maliyyəyə çıxışın asanlaşdırılması" sərlövhəli 3-cü strateji hədəfində nəzərdə tutulmuş prioritetlərdə göstərilən aşağıdakı tədbirlərin əhatə edildiyi daha təfsilatlı və geniş tədbirlər planını, icraçılar və icra müddətləri göstərilməklə, bir ay müddətində hazırlayaraq təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

1.1.1.kənd təsərrüfatı sahəsi üzrə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı 3.1-ci prioritet üzrə:

1.kənd təsərrüfatının maliyyə resurslarına tələbatı üzrə hədəflərin müəyyənləşdirilməsi;

2.kredit zəmanət fondunun yaradılması imkanlarına baxılması;

3.kənd təsərrüfatında innovativ və girovsuz kreditlərin tətbiqi mexanizmlərinin hazırlanması;

4.kreditlər üçün girov bazasının genişləndirilməsi;

5.kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə savadlılığının artırılması;

6.aqrar sektora təsir edən risklərin idarə olunması üzrə mexanizmlərin hazırlanması;

7.kredit təşkilatlarının vəsaitlərinin kənd təsərrüfatı sektorunun kreditləşməsinə yönəldilməsinin stimullaşdırılması;

1.1.2.aqrar sığortanın inkişaf etdirilməsi ilə bağlı 3.2-ci prioritet üzrə:

1.kənd təsərrüfatında sığorta sistemi ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsi;

2.kənd təsərrüfatı sahəsi üzrə sığorta fondunun yaradılması imkanlarının dəyərləndirilməsi;

3.Sığorta Hadisələri Reyestrinin hazırlanması;

4.karantin rejiminin tətbiqi ilə bağlı kənd təsərrüfatı istehsalçılarına dəymiş maddi zərərin ödənilməsi mexanizminin yaradılması;

5.kənd təsərrüfatı məhsulları istehsalçılarının sığorta savadlılığının artırılması;

1.1.3.aqrar sahəyə investisiya qoyuluşlarının təşviqi ilə bağlı 3.3-cü prioritet üzrə:

1.aqrar investisiya ehtiyaclarının qiymətləndirilməsi və investisiya layihələrinin hazırlanması;

2.aqrar sahədə investisiya mühitinin yaxşılaşdırılması;

1.2.bu sərəncamın 1.1-ci bəndində nəzərdə tutulmuş tədbirlər planının qanunvericilik və institusional islahatların həyata keçirilməsini nəzərdə tutan hissəsinin 2017-ci ildə icrasını təmin etmək məqsədilə zəruri tədbirlər görsün və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 11 aprel 2017-ci il**

## PREZİDENT İLHAM ƏLİYEVİN BİZƏ GÖSTƏRDİYİ YOL ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ZƏFƏR YOLUDUR

### Tənəzzüldən tərəqqiyə

Möhtərəm Heydər Əliyev 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəldikdən sonra iqtisadiyyatın digər sahələrində olduğu kimi, kənd təsərrüfatınlda, o cümlədən pambıqçılıqda da ciddi dönüş yaranmağa başladı. Həmin ilə qədər respublikada pambıq istehsalı cəmi 300 min ton idi. 1981-ci ildə isə bu göstərici artıq 1 milyon tonu ötmüşdü. Möhtərəm Heydər Əliyev SSRİ rəhbərliyində işlədiyi zaman Azərbaycanda bir çox sahələr kimi pambıqçılıq da tənəzzülə uğradı və bu proses ötən ilə kimi davam etdi.




Neftçala ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1973-cü ildə Salyan rayonundan ayrılaraq müstəqil rayon kimi yenidən təşkil olunduqdan sonra burada da pambıq istehsalı sürətlə artmağa başlamışdı. Aradan 6 il ötəndən sonra 1979-cu il mayın 30-da ulu öndər özünün qurub yaratdığı rayona gələndə neftçalalılar bu dahi insanı böyük hörmətlə, ehtiramla qarşıladılar. Həmin gün rayonun "Azərbaycan", N.Əliyev adına, "1 May" kolxozlarında, Bankə Balıq Kombinatında, tikinti meydanlarında və digər yerlərdə olan möhtərəm Heydər Əliyev sonra böyük müşavirə də keçirdi. Müşavirədə çıxış edənlərin hamısını diqqətlə dinləyən möhtərəm Heydər Əliyev həlli vacib olan məsələlər barədə elə oradaca nazirlərə, komitə sədrlərinə, rayon partiya komitəsinin rəhbərliyinə konkret tapşırıqlarını verməklə yanaşı rayonun sadə zəhmət adamlarının əməyini də layiqincə dəyərləndirmişdi, onlara daha böyük uğurlar, nailiyyətlər arzulamışdı. Bildirmişdi ki, kiçik Neftçalanın böyük növrağı hələ qabaqdadır. Bu rayon daha sürətlə inkişaf edərək ən öndə gedənlərin sırasına çıxacaqdır.

Doğrudan da belə olmuşdu. Bu səmimi, işgüzar görüşlərdən sonra rayonda əhvali-ruhiyyə durmadan yüksəlmişdi. Adamlar rəhbərin çağırışına yeni-yeni əmək töhfələrilə, qələbələrlə cavab verməyə çalışmışdılar. Pambıqçılıqda, taxılçılıqda, heyvandarlıqda və kənd təsərrüfatının digər sahələrində bir-birindən uğurlu nəticələr əldə olunmuşdu. Bir il sonra rayonda pambıq istehsalının 40 min tonu ötməsi, taxıl, heyvandarlıq məhsulları istehsalında göstəricilərin əvvəlki illə müqayisədə xeyli dərəcədə yaxşılaşması bunu əyani şəkildə nümayiş etdirirdi.

### Su gələn arxa bir də gələr deyiblər

Ümummilli lider Heydər Əliyevin yolunu layiqincə davam etdirən Prezident İlham Əliyev kənd təsərrüfatının, xüsusilə neçə illərdən bəri tənəzzülə uğramış pambıqçılığın və digər sahələrin dirçəldilməsi, əvvəlki şöhrətinin qaytarılması üçün



də tədbirlər görməyə bilməzdi. Gördü və bu sahədə real addımlar atdı.

Dövlət başçısının son illərdə imzaladığı fərman və sərəncamlar, verdiyi tapşırıqlar, pambıqçıların Sabirabad və Saatlı rayonlarında keçirilən respublika müşavirələrində, Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəziflərə həsr olunmuş iclasında, Yevlaxda qeyri-neft ixracatçılarının respublika müşavirəsində qaldırdığı məsələlər, söylədiyi fikirlər məhz bu vacib, təxirəsalınmaz vəzifələrin həllinə istiqamətlənib. Kənd təsərrüfatının ayrı-ayrı sahələrini, xüsusilə pambıqçılığı inkişaf etdirmədən kənd yerlərində yaşayan əhalinin məşğulluğunu təmin etmək mümkün deyildir. Dünya bazarına keyfiyyətli məhsul çıxarmadan yüksək gəlir əldə etmək, ölkəyə valyuta gətirmək, Azərbaycanı, onun ayrılmaz parçası olan doğma Neftçalamızı beynəlxalq aləmdə tanıtmaq mümkün deyildir.

### Əvvəlki ritm bərpa olunur

Pambıqçıların Sabirabad rayonunda keçirilən respublika müşavirəsi bu cəhətdən dönüş nöqtəsi oldu. Müşavirədə çıxış edən Prezident İlham Əliyev təkcə pambıqçılığın deyil, taxılçılığın, tütünçülüyün, fındıqçılığın, baramaçılığın və kənd təsərrüfatının digər sahələrinin perspektivlərinə də geniş aydınlıq gətirdi, görüləcək işlərlə bağlı konkret tapşırıqlarını verdi. Məhz bu işgüzar görüşdən sonra yerlərdə əmək bulaq kimi qaynamağa, çağlamağa başladı. Torpağa çiyid səpən insanlar "ağ qızıl"ın qara günlərinə son qoydular. Hər yerdə bol məhsul uğrunda mübarizə başlandı.

Rayonumuzun zəhmət adamları da bu mübarizənin önündə gedənlərdən oldular. Ötən il 1541 hektar sahəyə çiyid səpən fermerlər tarlalardan 2000 tona yaxın pambıq istehsal etməyə nail oldular. Əldə olunan nəticə ürəkaçan olmasa da, nübar məhsul kimi bu çox sevindirici idi. Uzun ayrılıqdan, tənəzzüldən sonra əvvəlki ritm bərpa olunmuşdu. Özü də təkcə pambıq tarlalarında deyil, pambıqtəmizləmə zavodlarında, tədarük məntəqələrində də canlanma yaranmışdı, kənd yollarındakı intensivlik daha da artmışdı. Bir sözlə, kənddəki durğunluq öz yerini qaynarlığa vermişdi.

İndi kəndlərimizdə əmək doğrudan da bulaq kimi qaynyır. Başqa cür ola da bilməz. Cari ildə 10 min hektar sahədə pambıq əkməyi qarşılarına məqsəd qoyan zəhmət adamları böyük səy göstərirlər. Artıq çiyid səpini başa çatmaq üzrədir. Rayonun özünə məxsus texnikaları ilə yanaşı lizinq yolu ilə alınmış və "Aqrolizinq" ASC-nin Neftçaladakı "Aqroservis" filialında toplanmış ən müasir mexanizmlər səpinin intensivliyində çox mühüm rol oynyırlar. Əkin zamanı torpağa mineral və üzvi kübrələr də verilir ki, bitkilər yaxşı inkişaf etsin, məhsul bol olsun.

Kənd təsərrüfatının, onun ayrı-ayrı sahələrinin, o cümlədən pambıqçılığın inkişafı uğrunda mübarizənin getdiyi, qarşıya yeni vəzifələrin, tələblərin qoyulduğu bir vaxtda biz də kənarda qala bilmərik. Bunu nəzərə alaraq qəzetimizin bu sayından etibarən yeni səhifə açırıq. Kənd təsərrüfatı ilə bağlı məsələlər, bu sahədə görülən işlər, həyata keçirilən təldbirlər, qabaqcılların iş təcrübəsinin işıqlandırılması, mütəxəssis məsləhətləri, əmək kollektivlərinin həyatı, işə mane olan əngəllər bu sahədəki yazıların başlıca mövzuları olacaqdır.

Əziz kənd əməkçiləri, bu sahədə çalışan mütəxəssislər! Sizi də yeni açdığımız səhifəmizin ətrafında sıx birləşməyə çağırırıq. Öz işiniz, fəaliyyətiniz barədə yazın, fikirlərinizi bildirin, məsləhətlərinizi verin. Bununla yanaşı narahatlıq doğuran məsələləri, problemləri də unutmayın. Unutmayın ki, Siz də öz sözünüzlə, söhbətinizlə, dəyərli məsləhətlərinizlə ümumi işimizə kömək göstərmiş olarsınız.

**H.ƏSƏDOV**

## İlkin becərmə tədbirləri necə aparılır

Artıq rayonumuzda çiyid səpini başa çatmaq üzrədir. Onu da deyim ki, Muğan və Mil-Qarabağ zonasında optimal səpin müddəti aprel ayının birinci ongünlüyündən, Şirvan zonasında isə ikinci ongünlüyündən sonrakı müddət hesab olunur. Kifayət qədər çiyidsəpən aqreqatlar, texnika vasitələri, mexanizmlər cəlb olunduğundan əkin hər yerdə vaxtında başladı və bu işi uğurla başa çatdırmaq əzmindəyik.

Pambıq qayğı sevən bitki olduğundan gərək onu daim diqqətdə saxlayasan, bütün aqrotexniki tədbirləri vaxtlı-vaxtında, keyfiyyətlə həyata keçirəsən. Səpindən sonra birinci növbədə normal çıxış alınan sahələrdə bitkilərin seyrəldilməsi işlərinə başlanılmalıdır. Aqrotexniki tələblərə görə cərgə arası 60 santimetr olan əkinlərdə hər 12-15 santimetrdən bir və ya 30 santimetrdə iki bitkinin, cərgə arası 90 santimetr olan sahələrdə isə hər 8-10 santimetrdən bir və ya 20 santimetrdə iki bitkinin saxlanılması məsləhət görülür.



İlkin becərmə tədbirlərində ketmənləmənin əhəmiyyəti böyükdür. Ketmənləmə zamanı bitki ətrafındakı torpaq yumşaldılır, bitki aralarındakı və müdafiə zolağındakı alaq otları məhv edilir, sahələrdə alaq otlarının çoxalmasından və vegetasiya suvarmalarından asılı olaraq becərmə dövründə 3-4 dəfə ketmənləmənin aparılması məqsədəuyğundur, aqrotexnikanın tələbidir.

Ketmənləmə ilə yanaşı kultivasiya işləri xüsusilə diqqət mərkəzində olmalıdır. Vaxtında və aqrotexniki tələblərə uyğun kultivasiya aparılmadan bol məhsuldan danışmaq olmaz. Kultivasiyanın aparılmasından məqsəd torpaqdakı rütubəti qorumaq, onu yumşaq halda saxlamaq, zərərli duzların torpaq səthinə çıxmasının qarşısını almaqdır. Kultivasiya zamanı, eyni zamanda alaq otları da məhv edilir. Bu tədbir vaxtında və keyfiyyətlə aparıldıqda torpağın üst qatı normal nəmlikdə yumşaq və dənəvər halda qalır, bitkilərdə kökçürümənin qarşısı alınır. Körpə cücərtilərin üstlərinin örtülməməsi üçün birinci kultivasiya dövründə işçi orqanların sırasına mütləq disk əlavə olunmalıdır. Bitkilərin iki əsas yarpaq olduğu dövrdə kök sisteminin dayazda olması da nəzərdən qaçırılmamalıdır. Bu zaman birinci kultivasiya 6-7 santimetr dərinlikdə olmalıdır, sonrakı mərhələlərdə isə bu dərinlik getdikcə artırılmalıdır. İlk və sonuncu kultivasiyalara traktorun birinci sürətində, qalan becərmələrdə isə ikinci sürətdə həyata keçirilməlidir. Birinci kultivasiyada alaqlı sahələrdə hər qola iki ədəd (sağ və sol) diskin, iki ədəd yastı kəsici bıçaq ülgücün bağlanması məqsədəuyğundur. Bu zaman darcərgəli əkinlərdə əlavə olaraq bir, gencərgəli əkinlərdə isə iki ədəd oxşəkilli (qazayağı) pəncələr bağlanmalıdır. Onu da deyək ki, kultivasiyanın keyfiyyəti işçi orqanlarının daim iti saxlanılmasından, düzgün istifadə edilməsindən çox asılıdır.

Cücərti alınandan sonra bitkilərin qida maddələrinə ehtiyacları daha da artır. Səpin zamanı hektara 100 kiloqram fosfor kübrəsinin 200 kiloqram çürümüş və ələnmiş peyinlə qarışdırılaraq verilməsi torpağı xeyli dərəcədə canlandırdığından bu iş bitkilərin çiçəklənməyə başladığı dövrdə də davam etdirilməlidir. Azot kübrəsi səpinqabağı, səpinlə birlikdə və qönçələnmə mərhələsində verilir. Kaliumdan isə qönçələnmə mərhələsində, xüsusilə vilt xəstəliyi olan sahələrdə hektara 50 kiloqram verilməklə istifadə edilir. Azotla yemləmə gübrəsinin verilməsi çiçəklənməyədək başa çatarsa, qoza əmələgəlmə dövrü qısalar. Fosfor çatışmadıqda, azot isə çox olduqda bitki yaxşı boy atsa da, məhsulu az olur, toxum və lifin keyfiyyəti pisləşir.

Yadda saxlamaq lazımdır ki, azot kübrəsinin illik norması fiziki çəkidə orta hesabla 350-400, fosforun miqdarı 500, kaliumun miqdarı isə 100 kiloqram miqdarında müəyyən olunur. Azotun illik normasının 25 faizi səpinqabağı becərmədə, qalan hissəsi isə çiçəklənməyə qədər, hər dəfə 150 kiloqram olmaqla kultivasiya zamanı iki dəfə istifadə olunur. Fosfor kübrəsinin illik normasının 70 faizi, yəni 300 kiloqramı şum altına, qalan hissəsi 100 kiloqram səpinlə birlikdə, 100 kiloqram isə qönçələmə fazasında verilir. Kalium kübrəsində isə bir qədər azdır, yəni şum altına 50, qönçələmə fazasında yemləmə kimi də 50 kiloqram həcmində nəzərdə tutulur.

Bu tədbirlər vaxtlı-vaxtında, aqrotexniki tələblərə uyğun həyata keçirilsə məhsuldarlıq xeyli dərəcədə yüksələr.

**Elman MƏMMƏDOV,**
**rayon kənd təsərrüfatı idarəsinin aparıcı məsləhətçisi**

## Ziyanvericilərə, xəstəliklərə qarşı mübarizə tədbirləri

Bitkiçilikdə ziyanvericilərə, xəstəliklərə qarşı mübarizə tədbirləri də az əhəmiyyət kəsb etmir. Pambığın hazırkı inkişaf fazasında payız sovkası, mənənə və trips kimi ziyanvericilərlə yanaşı kökçürümə və vilt xəstəliklərini də unutmaq olmaz.

Kökçürümə pambıqda göbələk xəstəliklərinin ən qorxulularından biridir. Bu xəstəliyi rizoktinoya saleni və fuzarium göbələkləri törədir. Yaz soyuq və yağmurlu keçəndə, xüsusilə qrunt suyu səthə yaxın olan ağır mexaniki tərkibli torpaqlarda bu xəstəlik pambıq əkinlərinə daha çox ziyan vuraraq toxumların cücərməsinə, eləcə də körpə cücərtilərdən tutmuş 6-7 əsl yarpaqlı bitkilərə sirayətlənir. Torpağın səpinə pis hazırlanması, sahənin qaysaq bağlaması, toxumun dərinə basdırılması, toxumda mexaniki zədələrin çox olması da kökçürümənin əmələ gəlməsinə əlverişli şərait yaradır. Bu xəstəlik nəticəsində sahədə bəzən elə seyrəklik yaranır ki, təkrar səpin aparılması qaçılmaz olur. Kökçürümə xəstəliyinə qarşı mübarizə məqsədi ilə təcili kultivasiya və ketmənləmə işi aparılmalıdır.

Vilt xəstəliyinin törədiciləri də göbələklərdir. Xəstəlik başlayanda yarpaqlarda sarımtıl ləkələr görünür, bu ləkələr çoxalaraq tündləşir və yarpaq quruyur, üzərindəki qozalar quruyaraq vaxtından qabaq açır. Viltə tutulmuş pambıqda əsas gövdə və budaqların oduncağı qaralır. Gövdəni kəsdikdə qara nöqtələr aydın görünür. Pambıq bitkilərinin vilt xəstəliyinə qarşı davamlılığını artırmaq üçün əlavə yemləmə kimi kalium gübrəsinin verilməsi (50 kq/hek) faydalıdır. Qönçələmə fazasında hər hektara karbamidin 5 faizli məhlulunun çilənməsi bitkinin xəstəliyə müqavimətini artırır.

Hörümçək gənəciyi yarpaqdan və çiçəkyanlıqlarının alt tərəfindən şirə sormaqla qidalanır, onların fizioloji funksiyalarını pozur. Bu da bitkilərin boy atmasını kəskin zəiflədir və az miqdarda qoza əmələ gəlməsi ilə nəticələnir. Zədələnmiş yarpaqlar, sonra isə qönçələr və qozalar tökülür, bitki bütün çılpaqlaşır. Hörümçək gənəciyi sürətlə çoxalmaq qabiliyyətinə malik olduğundan mövsüm ərzində 15-17-dək nəsil verir. Hörümçək gənəciyinin sürətlə yayılmasını nəzərə alaraq ayrı-ayrı bitkilər üzərində müşahidə edilərkən ona qarşı mübarizəyə dərhal başlamaq lazımdır. Bu ziyanvericiyə qarşı kimyəvi mübarizədə Bİ-58 preparatı səmərəlidir.

Mənənələr pambıq əkinlərinə alaq otlarından keçirlər. Zədələnmiş pambıq yarpağı formasını dəyişir, qıvrılır, cavan bitkilərin boy atması və inkişafı zəifləyir, qönçə və çiçəklər tökülür. Mənənə ildə 12-15 nəsil verir.

Trips isə əsasən pambıq bitkilərini qönçələmə fazasına qədər zədələyirlər. Bu zaman yarpağın alt tərəfi açıq gümüşü ləkələrlə örtülür, yarpaqlar böyüdükcə üzərində çatlar, yaxud kənarlarında ulduzabənzər deşiklər əmələ gəlir. Boy nöqtəsi zədələnmiş bitkinin çoxu məhv olur, bəziləri isə haçalanma verir, ləng inkişaf edir.Trips ildə 6-8 nəsl verir.

Mənənə və tripsə qarşı Bİ-58 (0,8-1,0 l/hek) və omayt (2,5-3,0 l/hek) preparatlarından istifadə edilir.

İyun ayından başlayaraq biz ən qorxulu ziyanverici olan pambıq sovkasına qarşı mübarizə məqsədi ilə müşahidələrin aparılmasına başlayacağıq. Bununla əlaqədar pambıqçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə lazım olan tövsiyə və təlimatlar veriləcəkdir.

Xəstəlik və ziyanvericilər taxıl əkinlərinə də az ziyan vurmur. Geniş yayılan ziyanvericilərdən zərərli bağacıq, taxıl böcəyi, mənənələr, zəlicə, çəyirtkələr və sair, xəstəliklərdən isə pas (qonur, sarı), habelə sürmə (bərk və toz) daha çox müşahidə olunur.



Zərərli bağacığın iki yaşda olan süfrələri taxılın üzərinə yayılaraq sünbüllərdəki dənlərin şirəsini sormağa başlayırlar. İyun ayının ortalarından başlayaraq əmələ gələn yetkin fərdlər də dənin şirəsini sorur, 10-15 gün qidalandıqdan sonra qışlama yerlərinə uçurlar. Zərərli bağacığın vurduğu ziyan nəticəsində dənlər cılızlaşır və belə taxıldan hazırlanmış xəmir pis acıyır, çörəyi boz rəngdə olur və pis dad verir.

Ziyanvericilərdən olan zərərli bağacığa, taxıl böcəyinə, mənənəyə, zəlicəyə qarşı karate (0,15-0,20 l/ha), Bİ-58 (0,9-1,5 l/ha), Buldok (0,25 l/ha) preparatlarından istifadə edilir. Bu zaman işçi məhlul hektara 200-300 litr hesabı ilə götürülür.

Toz sürmə xəstəliyni törədən göbələklər isə sünbül və dənləri zədələyərək qaramtıl toz halında kütlə əmələ gətirirlər. Nəticədə dənin keyfiyyəti aşağı düşür və məhsuldarlıq kəskin azalır. Sürmə və pas xəstəliklərinə qarşı mübarizədə Topsin-M (1,0-1,5 kq/ha), Balyeton (0,5-1,0 kq/ha), Polikarbatsin (5 kq/ha) preparatlarından istifadə olunması məsləhət görülür.

Kartofa ən çox ziyan vuran fitovtora xəstəliyi və kolorado böcəyidir. Fitoftora xəstəliyi çiçəklənmə və çiçəklənmədən sonra inkişaf edir. Fitoftoraya qarşı bordo, ridomil preparatlarından 2,5 kiloqram/hektar normada istifadə etməklə xəstəliyin qarşısını almaq mümkündür. Digər bir ziyanverici isə kolorado böcəyidir. Kolların üzərində böcəyin sürfələri müşahidə olunduqda konfidor, arrivo, desis karate və sumi-alfa preparatlarından biri ilə çiləmə aparılmalıdır. Kartof güvəsi də bu bitkinin qorxulu zərərvericilərindəndir. Kartof güvəsinə qarşı hər hektara 1 litr normasında diazinon və ya 300-400 qram konfidor çilənməlidir. Çiləmə kartof güvəsinin yumurta qoyduğu və sürfələr çıxdığı vaxt aparılmalıdır.

Son illər rayonumuzun ərazisində çılpaq ilbizlər də geniş şəkildə yayılmışdır. Bu zərərvericilər taxıl, bostan-tərəvəz, paxlalı, qismən də texniki bitkilərə ciddi zərər vurduqlarından onlara qarşı da ardıcıl şəkildə mübarizə tədbirləri həyata keçirilməlidir:

1.Kənd təsərrüfatı bitkiləri yüksək aqrotexniki səviyyədə becərilməli, əkin sahələri alaq otlarından təmiz saxlanılmalı və cərgə araları vaxtında kultivasiya edilməlidir.

2.Məhsul toplandıqdan sonra əkin sahələrindən bitki qalıqları yığılıb məhv edilməli və tarlalarda vaxtında dondurma şumu aparılmalıdır.

3.Çılpaq ilbizlərlə mubarizədə onlara kontakt təsir edən superfosfat, təzə sönmüş əhəng, göydaş, ammonium-sulfat, xörək duzu, formalin, furfurol və s. preparatlar, eyni zamanda torpağın zənginləşdirilməsi üçün istifadə olunan makro və ya mikro elementlərdən istifadə etmək tövsiyyə olunur. Bu məqsədlə kübrələr və əhəng torpağın tələbatına uyğun olaraq, hər hektara müxtəlif normada, xörək duzundan isə 1 hektar üçün 150 kiloqram məhlul hazırlayaraq istifadə edilməlidir.

4.Daxili bağırsaq təsirli metaldehid tərkibli preparatlardan istifadə edərək aldadıcı yem hazırlanır, 1 hektara 40-50 kiloqram məsarif norması ilə səpilir.

5.Helmasid preparatından 1 ha-a 50 kq istifadə edilir.

Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti çılpaq ilbizlərlə mübarizə aparmaq üçün sahibkarlara və fermerlərə yalnız metodiki dəstək göstərir, mübarizə işləri isə hüquqi, yaxud fiziki şəxslərin özləri tərəfindən aparılır.

**C.MƏMMƏDOV,**
**rayon bitki mühafizə mərkəzinin rəisi,**
**M.SALMANOV,**
**mərkəzin baş aqranomu**

## Neftçala Rayonu İcra Hakimiyyətində

# BİRİNCİ RÜBÜN YEKUNLARI RAYONUMUZ ÜÇÜN DƏ UĞURLUDUR

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqindən irəli gələn vəzifələrlə əlaqədar Neftçala Rayonu İcra Hakimiyyətində də toplantı keçirilmişdir.

Yığıncağa rayonun idarə, müəssisə və təşkilatlarının rəhbərləri, şəhər, qəsəbə və kənd inzibati ərazi dairələri üzrə nümayəndələr, bələdiyyə sədrləri, səhmdar cəmiyyətlərin sədrləri, müştərək müəssisə rəhbərləri, iş adamları, sahibkarlar, qeyri-hökumət təşkilatlarının rəhbərləri dəvət olunmuşdular.

Əvvəlcə rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev və tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin büstü önünə gələrək buraya tər çiçəklər düzdülər, ulu öndərə özlərinin dərin hörmət və ehtiramlarını bildirdilər.

Yığıncaq açıq elan edildikdən sonra Neftçala Rayonu İcra Hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev 2017-ci ilin birinci rübündə görülən işlər və qarşıda duran vəzifələrlə əlaqədar geniş məruzə etdi. Qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 2017-ci ilin birinci rübündə ölkəmizin qarşısında duran bütün vəzifələr uğurla icra edilmiş, iqtisadi və sosial proqramlar yerinə yetirilmiş, böyük layihələr icra edilmişdir. Dövlət başçısının sədrliyi ilə 10 aprel 2017-ci il tarixində Nazirlər Kabinetinin cari ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində Prezident İlham Əliyev demişdir: "Birinci rübdə ölkəmiz uğurla inkişaf edib, bizim bütün proqnozlarımız həyatda öz əksini tapır. Hələ keçən ilin sonlarında mən tam əminliklə qeyd etmişdim ki, 2017-ci ildə ölkəmizin sürətli inkişafı təmin ediləcəkdir. Birinci rübün nəticələri göstərir ki, Azərbaycan bütün sahələrdə çox sürətlə inkişaf edib, bizim beynəlxalq mövqelərimiz möhkəmlənib, ölkə daxilində proseslər müsbət istiqamətdə gedir, iqtisadi inkişaf təmin edilir, bütün sosial məsələlər öz həllini tapır. Çox ciddi sosial təşəbbüslər irəli sürülmüşdür, ordu quruculuğu uğurla gedir və əminəm ki, biz bu il istədiyimiz nəticələrə, bütün hədəflərə çatacağıq və 2017-ci il də ölkəmiz üçün uğurlu il olacaqdır.

Birinci rübdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir neçə hadisəni qeyd etmək istəyirəm. Birincisi, Dağlıq Qarabağda keçirilən qondarma "referendum"u qeyd etmək istəyirəm. Bu "referendum"un keçirilməsi ilə Ermənistan özünü bir daha biabır və ifşa etdi. Mən bir dəfə demişəm və bir daha demək istəyirəm ki, onlar orada nə qədər çox qanunsuz "referendum" keçirsələr, bu, bir o qədər çox bizim xeyrimizə işləyir. Çünki bütün qonşu ölkələrimiz, Minsk qrupuna həmsədrlik edən ölkələr, Avropa İttifaqı və bir çox ölkələr dərhal bu "referendum"u pislədilər. Bəyan etdilər ki, bu "referendum"u tanımırlar və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

İqtisadiyyatımızın əsas göstəriciləri qeyri-neft sektorunun, qeyri-neft sənayesinin və kənd təsərrüfatının inkişafıdır. Bütün bu istiqamətlər üzrə yaxşı nəticələr var. İqtisadiyyatın qeyri-neft sektoru 2,4 faiz artıbdır, qeyri-neft sənayemizin artımı 2 faiz səviyyəsində olubdur, kənd təsərrüfatı 3,5 faiz artıbdır. Xüsusilə qeyd etmək istəyirəm ki, bitkiçilik 20 faizdən çox artıbdır. Bu, onu göstərir ki, bizim gördüyümüz işlər, ciddi islahatlar, investisiyalar artıq öz nəticələrini verir.

Birinci rübdə bizim valyuta ehtiyatlarımız 1 milyard dollar səviyyəsində artıbdır. Bu gün valyuta ehtiyatlarımız 38,5 milyard dollardır. Bu, böyük rəqəmdir. Biz keçən il valyuta ehtiyatlarımızı qoruya bilmişik. Baxmayaraq ki, neftin qiyməti kəskin səviyyədə aşağı düşüb, bu il nəinki qoruya bilmişik, birinci üç ayda biz əlavə 1 milyard dollar qazanmışıq. Əminəm ki, biz il ərzində valyuta ehtiyatlarımızı artıracağıq.



Bax, bu göstəricilər bizim iqtisadi vəziyyətimizi real əks etdirir. Əgər əlavə etsəm ki, bu il Davos Ümumdünya İqtisadi Forumu iqtisadiyyatların rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 37-ci yerə layiq görüb, artıq mənzərə tamamlanır. Biz böhranlı illərdə öz reytinqimizi üç pillə artıra bilmişik. İnkişafda olan ölkələr arasında reytinqə görə isə Azərbaycan 1-ci, 2-ci yerləri bölüşür. Budur bizim işimizə verilən real və etibarlı qiymət. Biz bu yolla gedəcəyik, iqtisadi potensialımızı gücləndirəcəyik.

Biz gələn ay İslam Həmrəyliyi Oyunlarını keçirəcəyik. Bütün hazırlıq işləri yekunlaşır. Bu da böyük bir idman bayramı olacaq. Mən artıq təntənəli mərasimdə qeyd etdim ki, bu, təkcə idman Oyunları deyil, həm də birlik Oyunlarıdır.

Yenə də deyirəm, ilin birinci rübü ümidvericidir, bir daha onu göstərir ki, həm proqnozlarımız yerinə yetirilir, həm siyasətimiz uğurludur. Elə etməliyik ki, cari ilin sonuna qədər bu müsbət dinamikanı saxlayaq, ölkəmizi daha da gücləndirək."

Sözünə davam edən məruzəçi bu davamlı inkişaf prosesində Neftçalanın da özünə məxsus rolu olduğunu diqqətə çatdırdı. Bildirdi ki, 2017-ci ilin birinci rübündə ümumi məhsul istehsalının həcmi 2016-cı ilin müvafiq dövrünə nisbətən 37,6% artmışdır. Hesabat dövründə ümumi məhsul istehsalı 54 milyon 189 min manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 14 milyon 800 min manat çoxdur. 2017-ci ilin birinci rübündə ümumi məhsulun tərkibində sənaye məhsulu 7 milyon 804 min manat və ya ümumi məhsulun 14,4%-i qədər, kənd təsərrüfatı məhsulu 15 milyon 60 min manat və ya 27,9%, nəqliyyat xidməti 545 min manat və ya 0,9%, rabitə xidməti 170,0 min manat və ya 0,4%, ticarət, iaşə və digər xidmət sahələrinin həcmi 19 milyon 162 min manat və ya 35,4%, tikinti işlərinin həcmi 11 milyon 448 min manat və ya 21% olmuşdur. Ümumi məhsulun həcmində qeyri-dövlət bölməsinin payı 73%-ə çatmışdır. Adambaşına 629 manatlıq məhsul istehsal edilmişdir ki, bu göstərici 2016-cı ilin müvafiq dövrünə nisbətən 36,3% çoxdur.



2017-ci ilin birinci rübündə rayonda 8 yeni müəssisə yaradılmış, 452 fiziki şəxs fəaliyyətə başlamışdır. Yeni yaradılmış müəssisələr üzrə 11, fiziki şəxslər üzrə 452, mövcud müəssisə və təşkilatlarda 1 olmaqla cəmi 464 daimi yeni iş yeri açılaraq işsiz və işaxtaran vətəndaşlar işlə təmin olunmuşdur. Rayonda aparılan tikinti-quruculuq və digər tədbirlər üzrə işlərə 662 nəfər, kənd təsərrüfatında mövsümi işlərə 552 nəfər cəlb olunmuşdur. Ümumilikdə rayon üzrə 1678 nəfər işlə təmin olunmuşdur.

Hesabat dövründə rayonda fəaliyyət göstərən 12 sənaye müəssisəsi və bu sahədə fiziki şəxslərin fəaliyyəti nəzərə alınmaqla 7 milyon 804 min manatlıq sənaye məhsulu istehsal olunmuş, iş və xidmətlər yerinə yetirilmişdir. Sənayenin ümumi məhsulunda qeyri-dövlət bölməsinin xüsusi çəkisi 75,9% təşkil etmişdir.

2017-ci ilin birinci rübündə nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsi üzrə fəaliyyət göstərən fiziki şəxslərin işi nəzərə alınmaqla 172,0 min ton yük, 1 milyon 942,0 min nəfər sərnişin daşınmışdır ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 4,2 faiz, sərnişin daşınması isə 4,8 faiz artmışdır.



Hesabat dövründə rabitə müəssisələri tərəfindən əhaliyə, müəssisə və təşkilatlara faktiki qiymətlərlə 170,0 min manatlıq rabitə xidməti göstərilmişdir. Göstərilmiş rabitə xidmətlərinin həcmi keçən illə müqayisədə 2,4% artmışdır. Ümumi xidmətin 83,5 faizi bilavasitə əhalinin payına düşür.

Hesabat dövründə əhalinin nominal pul gəlirləri 66 milyon 126,0 min manat olmuş, 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 5,4% artmışdır. Adambaşına düşən pul gəlirləri 4,4% artaraq 767,5 manat olmuşdur. Rayon üzrə bir işçinin orta aylıq əmək haqqısı 266 manat təşkil edir. İlin əvvəlindən əhaliyə 54 milyon manatlıq istehlak malları satılmış və xidmətlər göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsi 18% artaraq 46,8 milyon manata, pullu xidmətlərin həcmi 11,3% çoxalaraq 6,2 milyon manata, iaşə xidmətinin həcmi 14,5% artaraq 940,0 min manata çatmışdır.

2017-ci il üçün rayonun yerli gəlirləri 6 milyon 169,0 min manat təsdiq olunmuşdur. 2017-ci ilin birinci rübündə büdcəyə 1 milyon 34 min manata qarşı 1 milyon 228 min manat vəsait daxil olmuş və ya 118,8% icra olunmuş, yerli xərclər 1 milyon 496 min manata qarşı 1 milyon 21 min manat və ya 68,3% icra olunmuşdur.

01 aprel 2017-ci il tarixə pensiya və sosial müavinət alanların sayı 14205 nəfər olmuşdur. Ünvanlı dövlət sosial yardımı alanların sayı 1122 ailə olmuş, 137 kimsəsiz ahıl və əlillərə sosial məişət xidməti göstərilmişdir.

2017-ci ilin birinci rübü ərzində rayon məşğulluq mərkəzi tərəfindən 265 nəfər işaxtaran vətəndaş daimi iş yerləri ilə təmin olunmuş, 5 nəfərə işsiz statusu verilərək işsizlik müavinəti təyin edilmişdir.

Cari ilin hesabat dövründə rayon paylayıcı elektrik şəbəkəsi tərəfindən rayona 49,2 milyon kvt.saat elektrik enerjisi verilmiş, o cümlədən elektrik enerjisinin 11,0 milyon kvt.saatı əhaliyə satılmışdır. Enerjinin dəyərinin rayon üzrə 64,6, əhali üzrə 91 faizi ödənilmişdir. Əhali abonentlərinin sayğaclaşdırılması 98,5% təşkil edir.

2017-ci ilin birinci rübü ərzində Salyan Regional Qaz İstismar İdarəsi tərəfindən rayona 7 milyon 790 min kub metr həcmində təbii qaz verilmiş, o cümlədən əhaliyə satılan qazın ümumi həcmi 7 milyon 180,5 min kubmetr olmuş, bunun da dəyəri rayon üzrə 82,4, əhali üzrə isə 86,8 faizi ödənilmişdir. Əhali abonentlərinin sayğaclaşdırılması 100% təşkil edir.

Rayonda 2017-ci ilin birinci rübündə aqrar sahədə müsbət irəliləyişlər olmuşdur. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin birinci rübündə kənd təsərrüfatının ümumi məhsulu 24,4 faiz artaraq 15,1 milyon manat olmuşdur. Göstərilən dövrdə diri çəkidə 3423 ton ət, 5087 ton süd, 1 milyon 505 min ədəd yumurta istehsal olunmuşdur. 2017-ci ilin məhsulu üçün 48783 hektar sahəyə taxıl əkilmişdir. Ölkə rəhbərinin tapşırığına əsasən rayonda 10000 hektar sahədə pambıq əkini nəzərdə tutulmuşdur. 5913 hektar torpaq sahəsi üzrə aidiyyəti şirkətlərlə müqavilə bağlanmış, 4087 hektar torpaq sahəsində isə fərdi qaydada pambıq əkini nəzərdə tutulmuşdur. Hal hazırda 2000 hektardan çox sahədə çiyid səpini aparılmış və bu işlər sürətlə davam etdirilir.

Bitkiçilik sahəsindən yüksək məhsul götürmək məqsədi ilə meliorativ tədbirlərin həyata keçirilməsində müəyyən işlər görülmüşdür. Hesabat dövründə rayon su və meliorasiya təşkilatları tərəfindən 84 km suvarma kanalları, 127 km kollektor-dren sistemi lildən təmizlənmiş, suvarma kanallarında 15 ədəd, kollektor-drenlərdə 27 ədəd hidrotexniki qurğular və nasos aqreqatları əsaslı və cari təmir edilmişdir.

Heyvandarlığın inkişafı sahəsində müsbət irəliləyişlərə nail olmaqla 2017-ci ilin birinci rübündə iri buynuzlu mal-qaranın baş sayı 43,7 min baş, qoyun və keçilərin baş sayı 141 min başa çatdırılaraq ötən illə müqayisədə müvafiq olaraq 854 və 2054 baş artmışdır.

Neftçala Magistral Kanalının nasos stansiyası ilə birlikdə layihəsinin tikintisinə 2006-cı ildə başlanılmışdır. Bu müddətdə 9,5 km hissəsi tam başa çatmış, 4 km hissəsində torpaq işləri tamamlanmaq üzrədir. 2018-ci ildə tikilib başa çatdırılması nəzərdə tutulmuş kanalın inşaasına cari ilin birinci rübündə 146 min manat vəsait sərf olunmuşdur. Layihənin icrasının sürətləndirilməsinə ciddi ehtiyac vardır.

Rayon icra hakimiyyəti 2017-ci ilin birinci rübündə rayon ərazisində təmir, tikinti və abadlıq işlərinin görülməsini diqqət mərkəzində saxlamış, həyata keçirilən işlərin keyfiyyətinə xüsusi önəm vermişdir. Hesabat dövründə rayon ərazisində tikinti işlərində əsas kapitala yönəldilmiş investisiyanın ümumi həcmi 11 milyon 978 min manat təşkil etmişdir. O cümlədən tikinti quraşdırma işlərinin həcmi 11 milyon 448 min manat yerinə yetirilmişdir. Ötən ilin eyni dövrü ilə müqayisədə investisiya qoyuluşu 2,9 dəfə, tikinti quraşdırma işləri 2,8 artmışdır.

Neftçala Sənaye Məhəlləsinində tikinti işləri başa çatdırılmışdır. Hal-hazırda burada istehsal proseslərinin həyata keçirilməsi üçün tam hazır vəziyyətə gətirilmiş istehsalat bloklarında rezidentlər tərəfindən avadanlıqların gətirilməsi və quraşdırılması istiqamətində işlər aparılır. Neftçala Sənaye Məhəlləsində fəaliyyət göstərəcək sənaye müəssisələrindən biri olan avtomobil zavodunun tikintisi aparılır.

Neftçala şəhəri M.Ə.Sabir küçəsində mərkəzi rayon xəstəxanasının binasının əsaslı təmir işləri başa çatdırılmış, hal-hazırda tikintisi davam etdirilən Neftçala Elektrik Şəbəkəsinin yeni inzibati binasında son tamamlanma işləri aparılır. Neftçala şəhər M.Səfərov adına inteqrasiya təlimli İnternat tipli gimnaziyada da əsaslı təmir davam etdirilir.

Uzunluğu 55,1 km olmaqla 21 yaşayış məntəqəsini əhatə edən, 37 min əhalinin yaşadığı rayonun Şorkənd-Beştalı-Bankə-Şirvanlı avtomobil yolunda tikinti işləri xeyli dərəcədə canlanmışdır. I rüb ərzində yolda 10 su ötürücü boru tikilmiş, torpaq yatağının tikintisi başa çatdırılmış, yol əsasının tikintisi üçün 3100 kubmetr material tədarük edilmişdir. Hal hazırda işlər davam etdirilir.

Məruzəçinin sözlərindən aydın oldu ki, hesabat dövründə Neftçala Rayon İcra Hakimiyyəti tərəfindən rayonda ictimai-siyasi tədbirlərin hazırlanıb keçirilməsinə xüsusi fikir verilmiş, humanitar sahədə bir çox işlər həyata keçirilmişdir.

Cari ilin I rübü ərzində rayonun təhsil müəssisələrində təlim-tərbiyənin səviyyəsinin daha da yüksəldilməsi və təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı bir sıra işlər görülmüşdür. Belə ki, istedadlı şagirdlərin aşkara çıxarılmasında əhəmiyyətli rol oynayan fənn olimpiadalarının rayon turu keçirilmiş, rayon turunda iştirak etmiş 258 şagirddən 55-i respublika mərhələsinin yarımfinal turuna vəsiqə qazanmış, onlardan 5 nəfəri I yerə layiq görülərək final mərhələsində iştirak etmək hüququ əldə etmişdir.

Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsinin təşkili ilə bağlı seçim turları keçirilmiş, Şorkənd kənd ümumi orta məktəbinin şagirdi rayon üzrə ən yaxşı nəticə göstərərək respublika mərhələsində iştirakını təmin etmişdir.

Azərbaycan Uşaqlarının IV Forumuna iştirakçıların seçilməsi məqsədilə Lənkəran şəhərində təşkil olunan regional görüşlərdə və Azərbaycanın Əməkdar elm xadimi, akademik, oftalmoloq alim Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş "Qələbəyə doğru" intellektual yarışmanın seçim turlarında rayon icra hakimiyyətinin dəstəyi ilə məktəblilərimiz iştirak etmiş, yarışda rayonumuzu təmsil edən "Everest" komandası III yerə layiq görülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində məktəblilər üçün respublikanın gəzməli-görməli yerlərinə təşkil olunmuş turlarda Neftçala rayonundan olan şagirdlər də iştirak etmiş, onlar mart ayında Quba, Qusar və Xaçmaz rayonlarına ekskursiyalar edərək, həmin yerlərin tarixi, mədəniyyəti və gəzməli yerləri ilə tanış olmuşlar. Şagirdlərin yolasalma mərasimləri Azərbaycan televiziyasında işıqlandırılmış, məktəblilər belə bir layihənin təşkilinə görə ölkə başçısına dərin minnətdarlıqlarını bildirmişlər.



Ölkə Prezidenti cənab İlham Əliyevin respublika əhalisinin ümumi profilaktik tibbi müayinələrə cəlb olunması barədə verdiyi tapşırığına əsasən fevral ayından rayon ərazisində əhalinin tibbi müayinədən keçirilməsinə başlanılmış, bu məqsədlə 3-ü səyyar olmaqla 5 həkim briqadası yaradılmış, tərtib edilmiş qrafikə əsasən ilkin olaraq rayonun idarə, müəssisə və təşkilatlarının kollektivlərinin tibbi müayinələrdən keçməsi təmin edilmişdir. Aprel ayının 1-dək ümumilikdə rayon üzrə 25459 nəfər profilaktik tibbi müayinələrdən keçmişdir. Müayinələr nəticəsində 880 nəfər ambulator, 9 nəfər stasionar müalicələrə cəlb olunmuş, 13 nəfər isə Bakı şəhərinin müxtəlif tibb müəssisələrinə daha ixtisaslı müayinə və müalicə almaq üçün göndərilmişdir. Hazırda yaşayış məntəqələri üzrə əhalinin tibbi müayinələri davam etdirilir.

Hesabat dövründə rayonda gənclərlə bağlı dövlət siyasətinin həyata keçirilməsi, uşaq və gənclərin asudə vaxtlarının təşkili istiqamətində müəyyən işlər görülmüşdür. Əlamətdar günlər münasibətilə inşa yazı və rəsm müsabiqələri, gənclər arasında milli-mənəvi dəyərlərin və vətənpərvərlik hisslərinin yüksəldilməsi, gəncləri zərərli vərdişlərdən uzaqlaşdırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirilmiş, bədən tərbiyəsi və idman sahəsində müxtəlif yarış və birinciliklər təşkil olunmuş, müvafiq olaraq qaliblər diplom və qiymətli hədiyyələrlə təltif edilmişlər.

Ötən ay rayonumuzda təşkil olunan pnevmatik silahlardan atıcılıq üzrə ölkə çempionatının zona yarışında komandamız uğurla çıxış etmiş, 11 rayonun iştirakçıları arasında II yerə layiq görülərək yarışın final mərhələsinə vəsiqə qazanmışdır.

2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamına müvafiq olaraq islam həmrəyliyinin əhəmiyyəti, islam dəyərlərinə hörmət etməklə Azərbaycanın müsəlman dövlətləri ilə qarşılıqlı faydalı münasibətləri mövzularında bir sıra maarifləndirici və təbliğat xarakterli tədbirlərin həyata keçirilməsinə başlanılmışdır.

Rayon icra hakimiyyəti başçısı aparatı 2017-ci ilin birinci rübündə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Neftçala rayon şöbəsi ilə daimi yaxından əlaqə saxlamışdır. Hərbi xidmətə çağırışla bağlı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamlarına uyğun olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsi tərəfindən 2017-ci ilin birinci rübündə norma daxilində çağırışçı gənclər hərbi xidmətə yola salınmışlar.

2017-ci ilin birinci rübündə rayon polis şöbəsi tərəfindən rayon üzrə müxtəlif xarakterli 41 cinayət hadisəsi qeydə alınmışdır. Ümumilikdə qeydə alınmış cinayətlərin açılması 100% təşkil edir. Rayon üzrə ümumi cinayətlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 cinayət faktı çox olmuşdur.

Rayon icra hakimiyyəti başçısı tərəfindən yerlərdə əhali ilə əlaqələri möhkəmləndirmək, onları narahat edən sosial problemlərin öyrənilməsi və həlli istiqamətində müvafiq tədbirlərin görülməsi ilə əlaqədar müntəzəm səyyarı görüş və qəbulların keçirilməsi daim diqqət mərkəzində olmuşdur. Bununla bağlı rayon icra hakimiyyəti başçısının səyyar görüş və qəbullarının keçirilməsi üçün illik qrafik tərtib olunmuşdur.

2017-ci ilin I rübündə icra hakimiyyəti başçısı tərəfindən 10 səyyar görüş və qəbul keçirilmiş və bu görüşlərdə 1037 nəfər iştirak etmişdir. Keçirilən görüşlərdə 40 nəfər 30 tənqidi qeyd və təkliflə çıxışlar etmişdir ki, bunlardan 5-i meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, 8-i yol və körpülərin inşası və ya təmiri, 4-ü təhsil müəssisələrinin təmiri və ya inşası, 4-ü elektrik təsərrüfatının yenidən qurulması, 3-ü "mavi yanacaq" ilə təminat, 2-si abadlıq və quruculuq işlərinin aparılması, 1-i içməli su ilə təminat, 2-si bankomatın quraşdırılması və 1-i məişət tullantılarının daşınmasından ibarət olmuşdur.

2017-ci ilin birinci rübündə rayon icra hakimiyyətinə vətəndaşlar tərəfindən 135 müraciət daxil olmuşdur ki, bundan 104 müraciət ərizə, 31 müraciət şikayət xarakterli olmuşdur. 2016-cı ilin birinci rübü ilə müqayisədə müraciətlərin sayı 19 müraciət azalmışdır.

2017-ci ilin birinci rübündə rayon icra hakimiyyətinə daxil olan 43 müraciətdən 4-ü nəzarət qaydasında olmaqla Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil olmuşdur. Müraciətlərdən 35-i ərizə, 8-i isə şikayət xarakterli olmuşdur. Azərbaycan Respublikasının Milli Məclisindən 11 ərizə, 2 şikayət olmaqla 13 müraciət, respublikanın digər təşkilatlarında 10 ərizə, 17 şikayət olmaqla 27 müraciət, vətəndaşlardan bilavasitə icra hakimiyyətinə ünvanlanmış 44 ərizə, 4 şikayət olmaqla 48 müraciət rayon icra hakimiyyətinə daxil olmuşdur.

2017-ci ilin birinci rübündə rayon icra hakimiyyətinə daxil olmuş müraciətlərdən 10 müraciət kollektiv, 7 müraciət təkrar xarakterli olmuşdur.

Hesabat dövründə rayon icra hakimiyyəti başçısı tərəfindən 62 nəfər vətəndaş qəbul olunmuşdur. O cümlədən, rayon icra hakimiyyəti başçısı aparatında 22 nəfər, səyyari qəbullarda 40 nəfər vətəndaş qəbul edilmişdir. Rayon icra hakimiyyəti başçısı aparatında başçı tərəfindən qəbul olunmuş vətəndaşların müraciətləri mövzular üzrə araşdırılarkən 1 müraciət mənzil ilə təmin olunma, 15 müraciət işlə təmin olunma, 1 müraciət evin qəzalı olması, tikinti materialları ilə köməklik olunması, 1 müraciət torpaq məsələləri, 4 müraciət ünvanlı sosial yardım məsələləri barədə olmuşdur.

Sözünə yekun vuran rayon rəhbəri əminliklə vurğuladı ki, rayon icra hakimiyyəti Azərbaycan Respublikası Prezidenti Zati-Aliləri cənab İlham Əliyevin göstərişlərini, imzaladığı fərman və sərəncamlarını, Azərbaycan Respublikasının Qanunlarını əldə rəhbər tutaraq vətəndaşların qəbulunu, onların müraciətlərinə baxılmasının səmərəliliyini artırmaq məqsədilə bundan sonra da lazımi tədbirlər görəcək, gələcək fəaliyyətini günün tələbləri səviyyəsində quracaqdır.

Sonra məruzə ətrafında müzakirələr başlandı. Rayon kənd təsərrüfatı idarəsinin rəisi Mustafa Əliyev, rayon mərkəzi xəstəxanasının baş həkimi Telman Zahidov, 50 saylı Yol İstismar MMC-nin rəisi Füzuli Babayev, Neftçala su-kanal idarəsinin rəisi Nizami Manafov, Neftçala şəhər inzibati ərazi dairəsi üzrə nümayəndə Zaur Kərimov çıxış edərək gördükləri işlər, həyata keçirdikləri tədbirlər barədə məlumat verdilər, rayon rəhbərinin birinci rübdəki fəaliyyətini müsbət dəyərləndirdilər.

Yığıncaqda müzakirə olunan məsələ ilə əlaqədar geniş qərar qəbul olundu.

Sonda toplantı iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri İlham Əliyevə müraciət ünvanlandı.

# "Aqrolizinq"in Neftçala filialında nə gördük, nə eşitdik?

Dünya bazarında neftin qiymətinin ucuzlaşması bütün ölkələrə, o cümlədən neft istehsal edən ölkələrin iqtisadyyatına öz təsirini göstərdi. Dünyada Odlar ölkəsi kimi tanınan ölkəmiz də bu təsirdən kənarda qalmadı. Sözügedən proses qeyri-neft




sektorunun canlandırılmasını gündəmə gətirdi. Xoşbəxtlikdən Azərbaycan iqtisadiyyatı tamamilə neftdən asılı olan ölkələrdən deyil. "Qara qızıl" ilə bərabər bizim "ağ qızıl" adlı potensial sərvətimiz hələ sovetlər dönəmində ölkəmizə dünya şöhrəti qazandırmışdı. Yeraltı sərvətlərimiz kimi yerüstü sərvətlərimiz də bizim üzümüzü həmişə ağ etmişdir. Hələ sovetlər dövründə ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Ağ qızıl" bizim milli sərvətimizdir." Lakin SSRİ dağıldıqdan sonra bir sıra iqtisadi əlaqələr də dağıldı, dövrün tələbi ilə pambıqçılıq arxa plana keçdi.

Belə olan halda möhtərəm Prezidentimiz İlham Əliyev bütün diqqətimizi qeyri-neft sektorunun, o cümlədən pambıqçılığın yenidən inkişaf etdirilməsinə yönəltdi.

Bu məqsədlə rayonumuzda da bir canlanma hiss olunmaqdadır. Fermerlərimiz taxıl və heyvandarlıqla yanaşı bu il pambıq əkininin genişləndirilməsinə də xüsusi əhəmiyyət verirlər. Rayonumuzda fermerlərə aqrar xidmət göstərən gərəkli bir təşkilat var: Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Neftçala bölməsi. Bu müəssisənin gördüyü işlərlə maraqlanmaq üçün oraya baş çəkdik. Filialın həyətində çoxlu sayda təzə kənd təsərrüfatı mexanizmləri starta hazır vəziyyətdə sıraya düzülmüşdü. Həyətdəki səliqə-sahman, yaşıllıq, təmizlik göz oxşayırdı. Müəssisənin yeni inzibati binasında bütün otaqlar ən müasir avadanlıqlarla, kompüterlərlə təchiz edilmişdi. İşçilərdən filialın rəhbəri Vaqif Qurbanovu soruşduq, dedilər Vaqif müəllim səhər tezdən çiyid səpini gedən bir fermer təsərrüfatındadır, işin gedişinə nəzarət edir. Onunla əlaqə saxladıq. Vaqif müəllim suallarımızı belə cavablandırdı:




— Hal-hazırda istifadəmizdə olan 10 ədəd şum traktoru, 10 ədəd mala və 3 ədəd çiyidsəpən aqreqat tarlalardadır. İndi iş gedən fermer təsərrüfatında 130 hektar sahədə pambıq əkməliyik. Şum, mala və çiyid səpini operativ şəkildə davam edir. Çiyid səpinində istifadə etmək üçün kifayət qədər kübrə almışıq, onu səpin vaxtı torpağa veririk ki, məhsuldarlıq yüksək olsun.

Söhbətimiz təkcə bununla bitmədi. Vaqif müəllim bildirdi ki, taxılbiçən aqreqatlar da işə tam hazır vəziyyətdədir. Filialın texnika parkına baxanda biz də bunun canlı şahidi olduq.

"Aqrolizinq"in rayonumuzdakı filialında təcrübəli kənd təsərrüfatı mütəxəssisləri çalışırlar. Əkinçilər, biçinçilər, çilingərlər — hamısı ixtisaslı işçilərdir. Yeni müasir texnika vasitələrinin sayı da durmadan artmaqdadır. Bununla əlaqədar filialın rəhbəri Vaqif Qurbanov dedi:

— Ölkənin tələbatı nəzərə alınaraq "Aqrolizinq" ASC tərəfindən müxtəlif markalı kənd təsərrüfatı texnikaları alınaraq Şirvan, Ucar və Gəncə təchizat bazalarına gətirilmişdir. Tələb olunan texnikaları lizinq




yolu ilə əldə etmək istəyən vətəndaşlar "Aqrolizinq" ASC-nin Sabirabad Regional Nümayəndəliyinin Neftçala bölməsinə müraciət edə bilərlər. Əlaqə telefonu belədir: 051-361-12-21

**Zabil PƏRVİZ**

## 2017-ci il "İslam Həmrəyliyi İli"dir

# İSLAM DİNİ VƏ MÜASİR DÜNYA

Möhtərəm Prezidentimiz İlham Əliyevin 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan etməsi heç də təsadüfi deyil. Bu din yarandığı, meydana gəldiyi gündən həmişə humanizm, alicənablıq və müdriklik ideyalarına xidmət edib, bu gün də həmin ideyalara xidmət edir. İslamın özülü, kökü, mayası, əsas qayəsi sonuncu müqəddəs kitabımız "Qurani-kərim"də təsbit olunub. "Qurani-kərim"sə yer üzünün bütün insanlarının Allah qarşısında bərabər olduğunu elan edir, hər cür zalımlığı, zorakılığı, zülmü, ədalətsizliyi, antihumanist hərəkətləri pisləyir, hamını sülhə, dincliyə, xeyirxahlığa səsləyir. Buna görə o müqəddəs kitabı əlinə alıb oxuyan hər bir kəsi İslam dini məftun edir, özünə bağlayır. Qərbin ən çox qorxduğu, ehtiyat etdiyi cəhətlərdən biri də elə budur. "Qurani-kərim" və həzrəti Əli əleyhissalamın xütbələrindən, məktublarından, hikmətli kəlamlarından ibarət "Nəhcul-bəlağə" kitabı XI-XII əsrlərdə Avropa dillərinə tərcümə olunduqdan sonra qısa bir müddət ərzində hər tərəfə yayıldı, dünyanın görkəmli elm, ədəbiyyat, mədəniyyət, incəsənət xadimləri, sıravi imanlı insanları bu dinin köklərini, əsaslarını öyrənməyə, dərk etməyə başladılar. Öyrəndikcə, dərk etdikcə də onun ecazkar qüdrətinə vuruldular, məftun oldular. Bu da İslama qarşı düşmən mövqedə dayanan Qərbin hakim dairələrinə sərf etmədi, onları qorxuya saldı. Buna görə həmin dairələr antiislam təbliğatlarını daha da gücləndirməyə başladılar.

Qərbin antiislam təbliğatının nümunələrini saymaqla qurtarmaq mümkün deyil. Hələ Qərb dünyasının qədim dahilərindən sayılan İtaliya şairi Dante "İlahi komediya"sında həzrəti Məhəmməd peyğəmbəri cəhənnəmdə təsvir edir, Əli əleyhissəlamı da onun yanında başı iki yerdən parçalanmış halda göstərirdi. Əli əleyhissalamın başının iki yerə parçalanması guya şiəliyə və sünniliyə işarə imiş. Dantenin bu təsəvvürü boş yerdən yaranmamışdı, o vaxta qədər aparılan antiislam təbliğatından qaynaqlanmışdı. Bundan xeyli əvvəl Avropadan Şərqə doğru böyük bir xaç yürüşlərinə başlanmışdı. Bəhanə də bu gətirilmişdi ki, guya "kafər müsəlmanlar" müqəddəs Qüds şəhərində İsa peyğəmbərin qəbrini təhqir ediblər, bu təhqirin intiqamını almaq üçün "günahkarları" layiqincə cəzalandırmaq lazımdır. Halbuki həmin ittihamın özü kökündən səhv, yanlış, absurd idi. Xristianların özlərinin dini kitablarına müraciət etsək, görərik ki, İsa peyğəmbər əleyhisəlam Allahın hökmü ilə qeybə çəkilib, onun heç yerdə heç bir məzarı yoxdur. Şərqə bu kimi mənasız bəhanələrlə hücuma keçən xaçpərəstlər şəhərləri, kəndləri, məscidləri viran qoymuş, dinc əhalini kütləvi surətdə qıraraq məhv etmiş, sərvət toplamaqla məşğul olmuşlar. Yalnız türklərin ciddi müqaviməti nəticəsində xristianların bu səlib yürüşünə son qoyulmuş, Şərq Qərbin vandalizmindən xilas edilmişdir.

Qeyd etdiyimiz kimi, İslam dini ilə tanış olan Qərbin ən böyük, müdrik şəxsiyyətləri bu dini həmişə yüksək dəyərləndiriblər, ona böyük ehtiram hissi ilə yanaşıblar. Avropanın məşhur yazıçıları Hüqonu, Balzakı, dahi ingilis şairi Bayronu buna misal göstərmək olar. Mirzə Kazım bəyin tələbələri olmuş N.Q.Çernışevski, L.N.Tolstoy bu dinə xüsusi rəğbət bəsləyiblər. N.Q.Çernışevski yazırdı: "Mən İslam dini ilə yaxından tanış oldum. Mirzə Kazım bəydən onun sirlərini öyrəndim. Deməli, bütün dünya ilə tanış oldum." L.N.Tolstoy isə yazırdı ki, mən bir daha dünyaya gəlsəydim, qeydsiz-şərtsiz İslam dinini qəbul edərdim. Onu da xatırladaq ki, L.N.Tolstoyun bir çox əsərləri məhz bizim dinin ruhunda yazılıb. Puşkinin, Lermontovun yaradıcılığında da belə motivlər az deyil. XX əsrin böyük siyasi xadimləri F.Ruzvelt, U.Çörçill İslam dininə xüsusi rəğbət bəsləyiblər.

Bütün bunlara baxmayaraq XX əsrin sonunda, XXI əsrin əvvəllərində Şərq-Qərb qarşıdurması yenidən qızışdırıldı, Amerika Birləşmiş Ştatları, Avropa ölkələri heç bir beynəlxalq hüquq normalarına əsaslanmayaraq qərəzli şəkildə İslam ölkələrinə qarşı silahlı təcavüzə, hərbi müdaxiləyə başladılar, İraqı, Əfqanıstanı, Suriyanı... yerlə yeksan etdilər. Bəhanə də bunu gətirdilər ki, guya həmin ölkələrdə nüvə silahı, digər qorxulu kütləvi qırğın silahları var. Bu absurd bəhanələrlə hərbi müdaxilə yolu ilə bir çox Şərq ölkələrinin mövcud hökumətləri devrildi, yerli əhali kütləvi şəkildə məhv edildi.

Bu gün torpaqlarımızın 20 faizi ermənilərin işğalı altındadır. Bununla bağlı Birləşmiş Millətlər Təşkilatı 4 qətnamə qəbul edib. Həmin qətnamələrdə Ermənistan işğalçı dövlət kimi qeyd olunub. Tələb edilib ki, erməni hərbi birləşmələri Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılsın. Həmin vaxtdan 25 il keçir. Bu müddətdə Ermənistanın quldur dəstələri bu ərazilərdən nəinki çıxarılmayıb, əksinə, həmin dəstələr sərhədlərimizdə yeni-yeni cinayətlər törətməkdə davam edirlər.

Dünyanın böyük qüvvələri bu gün də açıq şəkildə hadisələrə ikili standartlardan yanaşır, açıq və gizli şəkildə erməni quldur dəstələrini dəstəkləyir, onlara qəti şəkildə yerində dayan demir. Üzdəniraq Dağlıq Qarabağ "dövlətinin" müstəqilliyi haqqında "referendum" keçirilir, dinmirlər, hər gün sərhədlərimizdə atəşkəs pozulur, səslərini çıxarmırlar. Bu hal axıra qədər belə davam edə bilməz.

Qərb dövlətləri yenə də islam fundamentalizmi, islam terroru nağıllarını hallandırır, İslamı davakarlıqda, qaniçənlikdə təqsirləndirirlər. Halbuki qırılan, məhv olan müsəlman ölkələrinin əhalisidir, günahsız, dinc insanlardır.

Dünyanın böyük qüvvələrinin İslam dininə, İslam dövlətlərinə qarşı belə qərəzli, düşmən mövqe tutduğu bir vaxtda ölkəmizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev dünyaya cəsarətlə həmrəylik mesajı göndərir, bütün dünyanı İslam Həmrəylik Oyunlarına dəvət edir, hamını sülh bayrağı altında birləşməyə çağırır. Şübhə yoxdur ki, cənab Prezidentin bu qətiyyətli addımları gözəl bəhrələr verəcək, bütün yer üzünə, bizim Cənubi Qafqaz bölgəsinə əbədi dinclik gələcək, insanlar sülh, səadət, xoşbəxtlik içində yaşayacaqlar, hazırkı sıxıntılardan birdəfəlik canımız qurtaracaq.

**İmamverdi ZEYNALOV,**
**yazıçı-publisist**

# BİRGƏ TƏŞKİLATÇILIĞIN NƏTİCƏSİ

Prezident İlham Əliyevin 2017-ci ili ölkəmizdə "İslam Həmrəyliyi İli" elan etməsi ilə əlaqədar təşkil olunan silsilə tədbirlərdə İslamın mahiyyəti, mənəvi-əxlaqi dəyərləri barədə geniş söhbət açılır, maraqlı faktlar dilə gətirilir. Bir neçə gün bundan qabaq Neftçala Rayon İcra Hakimyyəti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə şəhər 1 saylı tam orta məktəbində "İslam həmrəylik və bərabərlik dinidir" adlı tədbir də bu məsələyə həsr lunmuşdu.



Tədbirdə rayon icra hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini — dini qurumlarla işin təşkilatçısı Vasif Əliyev, DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin aparıcı məsləhətçisi Yusif Yusifli, rayonun Böyük Oriyat məscidinin axundu Müslüm Qəhrəmanov, rayon gənclər və idman idarəsinin rəis müavini Nazim Dadaşov, rayonun təhsil işçiləri və şagirdlər iştirak edirdilər.

Tədbiri giriş sözü ilə açan Vasif Əliyev multikulturalizm və islam dəyərləri haqqında ətraflı məlumat verdi, bu sahədə ölkə miqyasında aparılan maarifləndirmənin önəmindən danışdı.

Daha sonra çıxış edən DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin aparıcı məsləhətçisi Yusif Yusifli bu ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsindən və bu münasibətlə keçirilən tədbirlərin əhəmiyyətindən söhbət açdı. Qeyd etdi ki, DQİDK-nın dini radikalizm və ekstremizmə qarşı apardığı maarifləndirici tədbirlər və bu məqsədlə çəkilmiş "Fitnə" filmi diqqəti çəkir, İslamın maraqların deyil, dəyərlərin həmrəyliyi olduğunu sübut edir.



Tədbirdə iştirak edən Böyük Oriyat məscidinin axundu Müslüm Qəhrəmanov, gənclər və idman idarəsinin rəis müavini Nazim Dadaşov və başqaları çıxış edərək müzakirə olunan mövzu ilə bağlı öz fikir və mülahizələrini bildirdilər, gənclərə özlərinin dərin tövsiyələrini verdilər.

# HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ NÖVBƏTİ "AÇIQ DƏRS"

Artıq üçüncü ildir ki, Heydər Əliyev Mərkəzi "Açıq dərs" layihəsini ardıcıl və davamlı şəkildə həyata keçirir. Bu dəfə Mahir Sadıqov adına I Mayak kənd və Tofiq İsmayılov adına Mirqurbanlı kənd tam orta məktəblərinin birgə əməkdaşlıqları çərçivəsində hazırladıqları "Odlar yurdu Azərbaycan" adlı coğrafiya gecəsi təqdim edildi. Gecəni Mirqurbanlı kənd tam orta məktəbinin coğrafiya müəllimi Pərvanə Məlikova hazırlamışdı.

Elə ilk dəqiqələrdən auditoriyanı ələ almağı bacaran aparıcılar - Mirqurbanlı və I Mayak kənd tam orta məktəblərinin şagirdləri Nərmin Abdullayeva və Nərminə Cəbrayılova əvvəlcə sözü Heydər Əliyev Mərkəzinin direktoru Ruhəngiz Nəcəfovaya verdilər. Ruhəngiz xanım tədbir iştirakçılarını salamlayaraq Mərkəzin ümumi fəaliyyəti barədə məlumat verdi, "Açıq dərs" layihəsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı.

"Odlar yurdu Azərbaycan" mövzusundakı "Açıq dərs" dövlət himninin səsləndirilməsi ilə başlandı. Bunun ardınca məktəblilərin Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun Biləsuvar rayonundakı ata ocağına səyahətlərini əks etdirən videoçarx nümayiş etdirildi.



Tədbirin aparıcıları növbə ilə Azərbaycanın coğrafi mövqeyi, strateji əhəmiyyəti, təbii ehtiyatları, iqlim şəraiti barədə danışdılar, əsrarəngiz gözəlliklərindən söhbət açdılar, tarixə qısa ekskursiya edərək respublikamızın ictimai-siyasi həyatında mühüm rol oynayan müstəqillik illəri ərzində əldə olunmuş nailiyyətlər barədə məlumat verdilər, ölkəmizin beynəlxalq aləmdəki nüfuzu, uğurlu daxili və xarici siyasəti ilə bağlı maraqlı fikirlər səsləndirdilər.

Sonra məktəblilər respublikamızla həmsərhəd dövlətlər haqqında maraqlı məlumatlar verdilər, qonşu ölkələrin bayraqlarının təsvirini əllərində tutaraq Azərbaycanın xəritəsi önündən keçib getdilər, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrindən, uğurlu əməkdaşlığından danışdılar, ayrı-ayrı ölkələrin Azərbaycandakı nümayəndələri qismində çıxışlar etdilər. Onlar Türkiyənin, İran İslam Respublikasının, Səudiyyə Ərəbistanının, Hindistanın, Yaponiyanın, Rusiyanın, Pakistanın, Özbəkistanın, Almaniyanın, Fransanın, Nigeriyanın, Böyük Britaniyanın, ABŞ-ın, İtaliyanın milli geyimlərində səhnəyə çıxaraq həmin ölkələrin nümayəndələri kimi o dövlətlərlə Azərbaycan arasındakı səmimi dostluq münasibətləri haqqında məlumat verdilər. "Açıq dərs"in bu hissəsi xüsusilə yaddaqalan oldu. Məktəblilər öz bacarıq və məharətləri ilə iştirakçılarda xoş təəssürat yaratdılar, onların alqışlarını qazandılar.



Nəhayət, söz ev sahibi Azərbaycana verildi. Şagirdlər əllərindəki üçrəngli bayraqla şeir və mahnı sədaları altında səhnəyə daxil oldular. Ayrı-ayrı ölkələrin milli geyimlərindəki uşaqlar da onlara yaxınlaşdılar, hamısı birlikdə gülər üzlə, mehribanlıqla əl-ələ tutaraq qədim Azərbaycan rəqsini etdilər, "yallı" getdilər. Şagirdlərin bu rəqsinə Mirqurbanlı kənd tam orta məktəbinin coğrafiya müəllimi Pərvanə Məlikova və ibtidai sinif müəllimi Pərvanə Mənəfova da qoşuldu, onlar da uşaqlarla birlikdə "yallı" getdilər. Bu xoş və gözəl mənzərəni ürək açıqlığı ilə seyr edən tamaşaçılar onların çıxışlarını alqışlarla qarşıladılar.

Mirqurbanlı kənd tam orta məktəbinin III "b" sinif şagirdlərinin ifa etdiyi rəqslər də maraq doğurdu. Şəms Rüstəmzadənin ifasındakı özbək milli rəqsi, Firəngiz Kərimovanın oynadığı qədim hind rəqsi şagirdlərin istedad və məharətindən xəbər verirdi. Tamaşaçılar qarşısında ritmləri ifa edən Elmir Gözəlovun bacarığı da diqqəti cəlb etdi. Bu rəqslərin şagirdlərə öyrədilməsində məktəbin ibtidai sinif müəllimi Pərvanə Mənəfovanın xüsusi əməyi və zəhməti olduğu qeyd edildi.

Maraqlı və yadda qalan səhnəciklərdən biri də şagirdlər tərəfindən aparıcıların respublika televiziyasında hava durumu barədə verdikləri məlumatları parodiya etmələri oldu. Məktəblilər ayrı-ayrı bölgələrimizin — Naxçıvanın, Quba-Qusar-Xaçmazın, Oğuz-Şəki-Qax-Zaqatalanın, Lerik-Yardımlı-Masallı-Lənkəranın, Neftçala-Salyan-İmişli-Sabirabadın, Bakı-Abşeronun ənənəvi geyimlərində və ləhcələrində məzəli atmacalarla həmin regionların hava durumu haqqında məlumat verir, o regionların adamlarını yamsılayır, parodiya edirdilər.

"Açıq dərs"də keçirilən əyləncəli oyunlar, viktorinalar da maraqlı oldu. Verilən sualları doğru cavablandıran Mirqurbanlı kənd tam orta məktəbinin XI "a" sinif şagirdi Rəvanə Hüseynova oyunun qalibi elan edildi və kitab hədiyyəsi ilə mükafatlandırıldı.

"Açıq dərs"də şagirdlərin çəkdikləri şəkillərdən və hazırladıqları əl işlərindən ibarət maraqlı sərgi nümayiş etdirildi.

Tədbirin ən fəal iştirakçılarına müxtəlif mükafatlar təqdim olundu. Mirqurbanlı kənd tam orta məktəbinin şagirdləri Zəhranın, Şəmsin, İlqarənin, Kamilənin, Gülşənin bacarıq və qabiliyyətləri xüsusilə yüksək dəyərləndirildi. Hər iki məktəbin şagirdlərindən Nərmin Abdullayeva, Rəvanə Hüseynova, Fərid Məmmədov, Niyaz Əhmədov, Rahim Qubadov, İsa Zeynallı, Lizə Səmədova, Böyükağa Səmədov, Gülşən Qubadova, Pəricahan Rzayeva, İlqarə Hüseynova, Şəms Rüstəmzadə, Zəhra Məmmədova, Kamilə Ələkbərli, Elmir Gözəlov, Firəngiz Kərimova, Humay Zöhrəbəyli, Məleykə Əhmədova, Coşqun Əliyev, Şamil Yaqubov, Sumar Həsənova, Təyibə Ələkbərova, İbrahim Əhədov, Kəmalə Əhmədova, Ruhanə Əhmədova tərifnamələrlə təltif edildidər, onlara dərslərində müvəffəqiyyətlər arzulandı.

"Açıq dərs"də çıxış edən müəllimlər və valideynlər də öz fikir və rəylərini söylədilər, bir çox mühüm məsələlərə toxundular.

"Açıq dərs"in müəllifi — Mirqurbanlı kənd tam orta məktəbinin coğrafiya müəllimi Pərvanə Məlikovaya hər iki məktəbin kollektivi adından yüksək ustalıqla hazırlanmış gözəl bir suvenir, nadir əl işi — rəmzi körpü maketi hədiyyə edildi.

Pərvanə müəllimə Heydər Əliyev Mərkəzinin direktoru Ruhəngiz Nəcəfovaya, tədbirin bütün iştirakçılarına özünün səmimi təşəkkürünü və dərin minnətdarlığını bildirdi.

Heydər Əliyev Mərkəzinin direktoru Ruhəngiz Nəcəfova belə tədbirlərin bundan sonra da ardıcıl olaraq davam etdiriləcəyini bildirdi.

Sonda çoxlu xatirə şəkilləri çəkdirildi, çay süfrəsi ətrafında maraqlı, səmimi söhbətlər aparıldı.

**Zaur ƏSGƏROV,**
**Mirqurbanlı kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi**

# Bizim reyd: GÖZ OXŞAYAN VƏ OXŞAMAYAN MƏNZƏRƏLƏR

Rayonumuzda son illərdə həyata keçirilən genişmiqyaslı abadlıq və quruculuq tədbirlərindən, yaşıllaşdırma işlərindən qəzetimizdə çox yazmış, çox söhbət açmışıq. Etiraf edək ki, başlanmış belə genişmiqyaslı quruculuq, abadlıq işlərinin həyata keçirilməsi, uzun illərdən bəri göz dağına çevrilmiş zibilliklərin və natəmizliklərin ləğv olunması üçün günlərlə, aylarla yox, illərlə böyük zəhmət sərf edilmişdir. İndiki Bulvar və Bayraq meydanının yerinin əvvəlki mənzərəsini görənlər heç ağıllarına belə gətirə bilməzdilər ki, yüz metrlərlə uzanan zibilliklərin, qındırğalıqların yerində belə möhtəşəm işlər gedəcək, ekoloji cəhətdən son dərəcə təmiz gözəllik və sağlamlıq məkanı yaradılacaq. Eləcə də xəstəlik mənbəyinə çevrilmiş "Axmaz" gölünün qazılaraq təmizlənməsi, üfunət yayan şəhərin açıq kanalizasiya sisteminin ləğvi hamımıza az qala fantastik görünən bir işdir. Ağcaqanad və vəhşi heyvanların səltənətinə çevrilmiş bu nəhəng infeksiya mənbəyinin qazılıb təmizlənməsi, ləğvi doğrudan da böyük insan zəhmətinin, yorulmaz əməyin nəticəsidir. Rayon mərkəzinin tanınmaz şəkildə dəyişməsi, yaşıllaşdırılması və ən əsası işıqlandırılması bir günün işi deyil. İndi Neftçalanın gecəsi gündüzündən seçilmir, buralar füsunkar işıq dənizini xatırladır. Bir-birindən gözəl, abad mənzərələri, qonaq qabağına çıxarılmalı cənnət guşələri görəndə adamın ürəyi dağa dönür, gözləri bu mənzərədən dincəlir.

Yuxarıda dediyimiz kimi bütün bunlar barədə biz çox yazmışıq, çox demişik, görülən işləri, həyata keçirilən tədbirləri əks etdirən xüsusi səhifələr hazırlamışıq. Ənənəmizə sadiq qalaraq bu günlərdə biz görülən işlərə, neqativ hallara, qüsurlu məqamlara mətbuat xətti ilə yenidən güzgü tutmağı qərara aldıq. Fotomüxbirimizi də götürüb müxtəlif idarə və müəssisələrin həyətyanı sahələrini, çoxmənzilli yaşayış binalarının ətraflarını nəzərdən keçirdik. Ürək açan işlərin də şahidi olduq, göz ağrıdan mənzərələri də gördük. Rayon mərkəzi xəstəxanasında görülən əsaslı təmir işləri bizi çox sevindirdi. Görülən işlərin miqyası bu gözəl kompleksi xəstəxana yox, sağlamlıq mərkəzi, əsl şəfa ocağı adlandırmağa imkan verəcək.







Hələ biz bu kompleksin şəhərimizə necə gözəllik, yaraşıq bəxş edəcəyini demirik. Onunla bir sırada olan 50 saylı yol istismar MMC-nin həyətində sözün əsl mənasında gül-gülü, çiçək-çiçəyi çağırırdı. Burada çalışan insanların zəhmətinə, zövqünə afərin deməyə bilmirsən.

Yol idarəsi ilə qonşu olan "Neftçala-Avtonəqliyyat" ASC-nin həyətyanı sahəsi barədə isə bunu demək mümkün deyil. Səliqəsizlik, tör-töküntü, sınıq-salxaq "istirahət köşkü", şərəfli günlərini çoxdan başa vurmuş, bozarmış "Şərəf lövhəsi", köhnə məzarlığı xatırladan, hansı tikilininsə uzaq illərdə atılmış, indi qaralmış təməl daşları... doğrudan da insanı kədərləndirir, ruhdan salır.

Yolumuza davam edərək dairəvi xətt üzrə "Axmaz" üzərindəki körpünü keçdik. Rayon polis şöbəsinin qarşısı əsl tikinti meydançası idi. Burada gördüyümüz yenidənqurma işləri bizi çox sevindirdi. Ürəkdən "yorulmayasınız, işiniz irəli" deyərək keçdik.

Rayon səfərbərlik və hərbi xidmətə çağırış şöbəsinin qarşısı da xeyli dərəcədə dəyişmişdi. Burada da lazımi abadlıq və təmir işləri görülmüş, gül-çiçək kolları, yeni ağaclar əkilmişdi.

"Azərpoçt" MMC Neftçala rayon poçt filialının Nuh əyyamından qalmış köhnə binası isə hələ də özünün təmirini, xoş günlərini gözləyir. Filialın rəisi Elmar Quliyev dedi ki, bu barədə nazirlik qarşısında məsələ qaldırılmış, rəhbərliyə rəsmi məktubla müraciət olunmuşdur. Yəqin ki, bu yaxınlarda binanın təmiri üçün müvafiq tədbirlər görüləcəkdir. Təki belə olsun.

"Azəriqaz" İstehsalat Birliyi Salyan Regional Qaz İstismar İdarəsi Neftçala xidmət sahəsinin inzibati binası öz gözəlliyi, müasirliyi ilə diqqəti uzaqdan cəlb edir. Lakin həyətyanı sahədəki səliqəsizlik, tör-töküntü, istirahət köşkünün qarşısında yandırılmış zibil topası bu gözəlliklə ziddiyyət təşkil edir. Salyan Regional Qaz İstismar İdarəsinin rəis müavini Həsən Sadıqov dedi ki, biz təmizlik işlərini "mərhələli şəkildə" aparırıq... Arzu edirik bu "mərhələli" iş tezliklə başa çatsın, burada nümunəvi səliqə-sahman yaradılsın.

Neftçala su kanal idarəsində gördüklərimiz isə bizi çox sevindirdi. Burada xeyli yeni ağac əkilmişdi. "Axmaz" gölünün sahilində böyük bir yaşıllıq zonası salınmışdı. İdarənin rəisi Nizami Manafov abadlıq, yaşıllaşdırma işlərinin davam edəcəyini bildirəndə sevincimiz daha da artdı, onlara işiniz avand, suyunuz bol olsun deyib yolumuza davam etdik.







Rayon telekommunikasiya qovşağının binasının qarşısında qəşəng daş məhəccərli iki balaca lək var. Bu ləklərdə vaxtilə Neftçalada yaşayan ruslar bir-iki yolka ağacı və bir neçə "rus gülü" əkiblər. Di gəl ki, qocalmış rus yolkalarına bu il səliqəli əhəng çəkmək də yaddan çıxıb, təzə güllər əkmək yada düşməyib.

İdarə və müəssisələrlə yanaşı rayondakı çoxmənzilli binalara, onların ətrafına da baxış keçirdik. Burada da lazımi səliqə-sahman görmədik. Əsas günahkar isə yenə özümüzük, binaların sakinləridir. Həyətlərdə müvafiq qutular qoyulsa da, zibili gecələr ora-bura atanlar, ətrafda natəmizlik yaradanlar hələ də var. İstər-istəməz sual doğur: niyə belə olsun? Niyə insanlar öz sağlamlıqlarına, uşaqlarının gələcəyinə qarşı bu qədər laqeyd olsunlar?

Rayonun ən gəliş-gedişli yeri köhnə bazardır. Bu bazar haqqında da çox deyilib, çox yazılıb. Amma di gəl vəziyyət dəyişməyib, necə deyərlər, köhnə hamam, köhnə tas olaraq qalır. Şəhərdə müasir tələblərə cavab verən yeni təzə bazar tikilsə də, heç kim ora köçmək istəmir. Nədənsə bu antisanitar yerə bazar zəhmətkeşləri bir könüldən min könülə vurulublar. Nə vaxtacan belə davam edəcək, bilən yoxdur.

Şəhərimizin parklarını, prospekt və küçələrini də gəzdik. Yazın gəlişi ilə bağlı hər tərəf yaşıllıqlara qərq olub. Amma bu yaşıllıqların fonunda qurumuş ağaclar diqqəti daha çox cəlb edir, ümumi mənzərəni gözdən salır. Onları kəsib yerində təzələrini əkmək heç də çətin deyil. Əlbəttə ki, hərəkətə gəlməklə.

Ümumiyyətlə, bu yer, bu torpaq, bu rayon bizimdir. Adətinə, ənənəsinə dodaq düzdüyümüz, bəyənmədiyimiz bəzi ölkələr var ki, onların vətəndaşları hətta yerə adi bir siqaret kötüyünü də atmırlar, bunu özlərinə, öz vətənlərinə hörmətsizlik sayırlar. Qoy hər kəs özündən başlasın, illər boyu yaratdığımız gözəlliyi ləkələməsin. Elə Vətənə məhəbbət də bundan, buradan başlanmırmı?

**Reydlərimiz davam edəcək.**

**Habil ƏSƏDOV,**
**Zabil PƏRVİZ, Murad ƏHMƏDOV**
**"Gündoğar"ın əməkdaşları**

# Dünya şöhrətli idmançılarımız

## QIZIL MEDALLI POLİS ZABİTİ

Bu şad xəbəri ilk olaraq rayon polis şöbəsinin rəisi, polis polkovniki Vüsal Şəbəndəyevdən aldıq. Səsindəki sevinc açıq-aydın hiss olunurdu:

— Əməkdaşımız Şəhriyar Hüseynzadə Portuqaliyanın paytaxtı Lissabon şəhərində keçirilən dünya çempionatında qızıl medala layiq görülüb, — dedi.

Eşitdiyimiz şad xəbərdən biz də sevindik, qələbə münasibətilə ilk olaraq şöbə rəisinin özünü təbrik etdik. Ona görə ki, Şəhriyar bu kollektivin üzvüdür. Şöbənin çinayət-axtarış bölməsində çalışır, polis leytenantıdır. Əgər rəhbərlik tərəfindən onun üçün lazımi şərait yaradılmasaydı, kömək göstərilməsəydi, yəqin ki, idmançı bu böyük uğura nail ola bilməzdi.

İdmana, idmançılara diqqət bütün dünyada böyük-



dür. Bəzən bir istedadlı, bacarıqlı futbolçunun bir komandadan başqa komandaya keçməsi milyonlara başa gəlir. Yüksək istedada malik digər idmançının da dəyəri belədir. Olimpiya oyunlarında böyük qələbələr qazanan idmançılarımızın Prezident İlham Əliyevin sərəncamları ilə ən yüksək mükafatlara layiq görülməsi çoxlarında qibtə hissi doğurur. Amma onlar bu yolun hansı çətinliklərdən keçdiyini, hansı əziyyət, hansı iradə hesabına başa gəldiyini xəyallarına belə gətirmək istəmirlər. Peşəkar idmanda böyük qələbə heç də təsadüfən olmur. Bunların arxasında uzun-uzadı aparılan yorucu, usandırıcı məşqlər, əsəb gərginlikləri, narahatlıqlar durur. İdmançı bütün bunlara tab gətirəndə əsl idmançı olur, layiqli qələbələr qazanır, öz ölkəsinin, mənsub olduğu xalqının başını uca edir. Necə ki, Şəhriyar Hüseynzadə etdi.

Şəhriyar Hüseynzadə 1988-ci il may ayının 15-də Bərdə şəhərində anadan olmuşdur. Kiçik yaşlarından idmanın sambo növü ilə məşğul olan Şəhriyar böyük arzularla yaşayırdı. İdmanın çətinliyi, məşqlərin ağırlığı onu sıxsa da ruhdan düşmürdü. İnadla sambonun incəliklərinə yiyələnirdi. Məşqçiləri də inanırdılar bu inadkar yeniyetmənin gələcəyinə. İnanırdılar ki, çəkilən zəhmət hədər getməyəcək, Şəhriyar çətin mübarizələrdə öz sözünü deyəcək.

Bu, doğrudan da belə oldu. 2004-cü ildə ilk uğuruna imza ataraq uşi-sanda üzrə Bakı çempionatının qalibi olan gənc idmançı sonrakı illərdə Azərbaycan çempionatında, Türkiyədə keçirilən beynəlxalq turnirdə, gənclər arasında keçirilən universiadada da layiqli qələbələr qazandı, onu sevənləri ürəkdən sevindirdi.

İdmana olan böyük maraq, ardıcıl məşqlər, bir-birindən çətin yarışlar Şəhriyarı təhsildən də yayındırmırdı, əksinə, ona yeni güc verirdi, oxuyub öyrənmək həvəsini daha da artırırdı. Belə olmasaydı Şəhriyar Hüseynzadə Azərbaycan Dövlət İqtisad Universitetini müəffəqiyyətlə başa vurduqdan sonra Bakı Dövlət Universitetinin hüquq fakültəsinə qəbul oluna bilməzdi. Bu da onun yaxşı hüquqşünas olmaq arzusundan irəli gəlirdi.

Həyat göstərdi ki, idman Şəhriyar üçün ötəri hiss, keçici həvəs, maraq deyil. Bu onun həyatının mənası, xoşbəxt taleyidir. Ş.Hüsenzadə hüquq elminin nəzəri əsaslarına dərindən yiyələnməklə yanaşı ürəkdən bağlandığı idmandan da ayrılmadı, yeni hədəflər müəyyənləşdirdi, daha böyük qələbələr, zəfərlər haqqında düşünməyə başladı. Uşi-sanda üzrə keçirilən yarışlarda yenidən Bakı birinciliyinin, Azərbaycan çempionatının qalibi olan, dünya birinciliyində ikinci yerə layiq görülən Şəhriyar Hüseynzadənin özünə olan inamı da artırdı. Bu enerjili, qaynar təbiətli gəncin növbəti hədəfi dünya birin-



ciliyinin qızıl medalına ünvanlanmışdı.

Deyir niyyətin hara, mənzilin də ora. Gənc idmançı Portuqaliyanın paytaxtı Lissabonda keçirilən dünya çempionatının necə çətin, ağır olacağını yaxşı anlayırdı. Buna görə məşqlərini daha inamla, daha inadla davam etdirirdi. Düşünəndə ki, çalışdığı kollektivin rəhbərliyi, iş yoldaşları, doğmaları bu çətin yarışların nəticələrini böyük ümidlə, intizarla gözləyirlər, məsuliyyəti daha da artırırdı.

35 ölkədən 6000-dən çox təcrübəli, güclü, peşəkar idmançının qatıldığı bu mübarizədə qalib gəlmək heç də asan olmayacaqdı. Amma həmyerlimiz bu çətin yarışlara kifayət qədər hazırlıqlı gəlmişdi. Özü də, məşqçiləri də inanırdılar ki, çəkilən zəhmət hədər getməyəcək, öz bəhrəsini verəcəkdir. Həmin həyəcanlı, narahat günləri xatırlayan Şəhriyar Hüseynzadə deyir:

— Eşidəndə ki, ilk rəqibim yerli idmançı portuqaliyalı olacaq, həyəcanım bir az da artdı. Onu tanıyırdım, haqqında eşitmişdim, çox güclü, təcrübəli idmançı idi. Üstəlik doğma torpaq da ona güc verəcəkdi. Bütün bunlara baxmayaraq yarış meydanını qələbə ilə tərk etdim. Bu mənim böyük qələbəyə olan inamımı daha da artırdı. Növbəti döyüşəcəyim ispaniyalı idmançı da asan rəqib deyildi. Mübarizə çox gərgin keçsə də, hakimlər məni qalib elan etdilər. Artıq böyük qələbənin bir addımlığında idim. Qarşılaşdığım üçüncü şəxsi, livanlı idmançını da məğlubiyyətə uğrada bilsəydim, birinciliyin qızıl medalına sahib olacaqdım. Ona böyük üstündüklə qalib gəldiyimə görə arzuma yetdim. Bu məni çox sevindirdi. Üçrəngli bayrağımız ən yüksək zirvəyə qalxanda, dövlət himnimiz əzəmətlə səslənəndə sonsuz qürur hissi keçirdim. Bəli, bu mənim bayrağım idi, müstəqil Azərbaycanımızın Dövlət bayrağı. Önündə baş əydim. Qələbə münasibətilə mənə ilk zəng vuranlardan biri də çalışdığım kollektivin rəhbəri — Neftçala Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Vüsal Şəbəndəyev oldu. Şəxsi heyət adından məni ürəkdən təbrik etdi, daha böyük uğurlar arzuladı.

Peşəkar idmançı üçün qısa fasilə var, dinclik dövrü yoxdur. O harada olursa-olsun dayanmamalıdır, məşqlərinə davam etməlidir, ustalığını durmadan artırmalıdır. Yoxsa peşəkarlığını itirər, növbəti çətin yarışlarda uğur qazana bilməz. Uşu-sanda üzrə dünya birinciliyinin qızıl medalına layiq görülməsinə baxmayaraq Şəhriyar Hüseynzadə bu gün də məşqlərini inadla, inamla davam etdirir. Axı onu qarşıda yeni çətin sınaq — mayın 30-dan iyunun 4-nə kimi keçiriləcək uşu-sanda üzrə dünya kuboku uğrunda çətin mübarizə gözləyir. Biz inanırıq ki, Şəhriyar Hüseynzadə bu çətin sınaqdan da alnıaçıqüzüağ çıxacaq, rayonumuza yeni qələbə ilə qayıdacaqdır.

Sözünün sonunda Şəhriyar Hüseynzadə dedi:

— Qazandığım qələbələrə görə ilk növbədə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə borcluyam. Əgər ölkəmizdə idmana, idmançılara bu qədər böyük, yüksək qayğı göstərilməsəydi, şübhəsiz ki, bu uğurlara nail ola bilməzdim. Buna görə dövlətimizin başçısına ürəkdən minnətdaram. Biz daxili işlər naziri, general-leytenant



cənab Ramil Usubovun köməyini, qayğısını da daim hiss etmişik. Məşqçilərimin, müəllimlərimin, çətin günlərdə həmişə yanımda olan iş yoldaşlarımın mənəvi dəstəyini də yüksək dəyərləndirirəm.

Bu dəyərə siz özünüz də layiqsiniz, cənab leytenant! Dünya birinciliyinin qızıl medalının sahibi olmaq hər idmançıya nəsib olmur. Halalınız olsun, yeni qələbələrinizin sorağındayıq.

**Habil ƏSƏDOV**

# Vaqif Əliyev - 80

## YOLUNUZ DAVAM EDİR

**Qəzetimizə uzun müddət rəhbərlik edərək dövrünün mətbuat sahəsindəki ən yüsək mükafatlarına layiq görülmüş Vaqif Əliyevin işıqlı xatirəsi bizim üçün həmişə əzizdir. Vəfatından az sonra yaxın dostu, respublikanın Əməkdar müəllimi Tədbir Mahmudovun qələmə aldığı "Oxunmamış nəğmələr" adlı kitabında digər iş yoldaşları, dostları ilə yanaşı, mənim də "Yolunuz davam edir, Vaqif müəllim" sərlövhəli yazım dərc olunmuşdu. Ustadımızın 80 illik yubleyinin qeyd olunduğu bu əlamətdar günlərdə həmin yazını qəzetimizin oxuculrına təqdim edirəm.**



Uzun illər idi Tatarməhlə kənd kitabxanasında işləyirdim. Çox əlverişsiz və darısqal bir otaqda tərpənmək mümkün deyildi. Belə vəziyyət istər-istəməz adamı sıxırdı. Dəfələrlə Salyana gedib rayon mədəniyyət şöbəsinin və digər münasib idarə və təşkilatların rəhbərlərindən iş istəmişdim. Ancaq hər yerdə gözləməyi məsləhət bilmişdilər.

1973-cü ildə söz yayıldı ki, Neftçala Salyandan ayrılıb müstəqil rayon olacaq. Bu, çoxları kimi mənim də qəlbimdə bir ümid işığı yandırdı. Fikirləşdim, öz rayonumuzda mənə də münasib bir iş tapılar. İxtisasca kitabxanaşünas-biblioqraf olsam da, yazıpozu işinə, yaradıcılığa meylim güclü idi. Redaksiyada işləməyi çox arzulayırdım.

Nəhayət, Neftçala rayonunun yaradılması haqqında qərar verildi. İdarə və təşkilatlar təşkil olunmağa başladı. Bir xeyirxah şəxsin zəmanəti ilə Vaqif müəlimin yanına gəldim. Həddindən artıq həyəcanlı idim. Beynimdə yalnız bir fikir dolaşırdı: görəsən, götürəcəkmi? Xeyli söhbətdən sonra mənə bir neçə mövzu verdi və dedi: bunları hazırla gətir, qane etsən işə götürərəm. Vaqif müəllimin səmimi söhbəti, "qane etsən götürərəm" ifadəsi içimdəki işığı bir az da artırdı. İki gündən sonra yenidən gəldim. Üç məqalə gətirmişdim. Vaqif müəllim onları oxuyana qədər çox həyəcan keçirdim. Fikrim onda idi. Sonuncu yazımı oxuyandan sonra dedi:

- Deyəsən fikrimdə yanılmamışam. Səninlə əməkdaşlıq etmək olar. Ancaq birdən-birə şöbə müdiri verə bilməyəcəyəm. Baş ədəbi işçi işləyərsən, sonra baxarıq. Sabahdan işə gəl.

Ertəsi gün işə gəldim və həyatımın 25 ili Sizin arayıb ərsəyə gətirdiyiniz, həyatınızı verdiyiniz "Gündoğar" qəzetində Sizinlə birlikdə keçdi, Vaqif müəllim. Ötən bu illər mənə çox şey verdi. Başa düşdüm ki, böyüklüyündən, kiçikliyindən asılı olmayaraq, hər hansı kollektivi ailə adlandıranlar yanılmırlar. İnsanın iş yeri, işlədiyi kollektiv ona doğrudan da ailəsi qədər doğmadır. İnsan həyatının üçdə birini iş yerində keçirir. Kollektivdəki, iş yerindəki əhvali-ruhiyyə, buradakı vəziyyət insanın əhvali-ruhiyysinə, psixoloji durumuna az təsir göstərmir. Bütün bunları tənzimləyən isə bilavasitə kollektivin başçısı, rəhbəridir. Bu mənada bizim Sizin haqqınızda söz deməyə, fikir yürütməyə daha çox mənəvi haqqımız var.

Həyat yolunuz, ictimai fəaliyyətiniz, şəxsiyyətiniz haqqında çox şey demək olar. Biz bir çox keyfiyyətləri - işdə təmkinli olmağı, dəqiqliyi, necə deyərlər, yüz ölçüb bir biçməyi Sizdən öyrənmişik. Sizin hərəkətiniz, davranışınız, insanlara münasibətiniz bizim üçün həmişə örnək olub .Övlad atası ilə öyündüyü kimi biz də Sizinlə fəxr etmişik.

Həmin vaxtdan bir neçə il sonra "Gündoğar"a rəhbərlik etmək mənə həvalə olundu. Sizdən sonra, Sizsiz bu yolu davam etdirmək o qədər də asan deyildi. Xüsusilə, problemlərin baş alıb getdiyi bir şəraitdə. Ancaq Sizin möhkəm iradəniz, təmkininiz bizə həmişə örnək oldu. Sabaha inamla baxdıq. Son illər "Gündoğar"ın xeyli dərəcədə işıqlanması Sizə əyan olmaya bilməz. Bu işdə xeyirxahlıq, kömək göstərən bütün insanlara, xüsusilə rayon rəhbərinə ürəkdən minnətdarıq. Əvvəlki illərdə olduğu kimi, bir çox başqa rayonların redaksiya kollektivləri bu gün yenə bizə, qəzetimizə, Sizin "Gündoğar"ınıza qibtə ilə baxırlar. Bu, Sizin qoyduğunuz yoldur, biz davam etdiririk. Yaxşı, xeyirxah, mətbuatın qədrini, qiymətini bilən insanların köməyi sayəsində. İnanıram ki, bu yol uğurlu olacaq, "Gündoğar" respublikamızın rayon qəzetləri arasında öz tərtibatı, məzmunu, dövlətə və dövlətçiliyə sədaqəti və digər yüksək keyfiyyətləri ilə həmişə sayılıb seçiləcəkdir.

**Habil ƏSƏDOV,**
**"Gündoğar" qəzetinin baş redaktoru, respublikanın Əməkdar jurnalisti**

# Bir kəndin and yeri:

## ŞƏHİD MƏZARI

Qarabağ uğrunda ağır döyüşlər, çarpışmalar başlayan gündən yüzlərlə sayseçmə oğullarımız Vətən uğrunda canlarından keçiblər. Təəssüf hissi ilə qeyd etməliyik ki, şəhid məzarları Azərbaycanın hər şəhərinə, hər qəsəbəsinə, hər kəndinə səpələnib, müqəddəs ziyarət yerlərinə çevrilib.

Rayonumuzun II Qaralı kəndi də belələrindən biridir. Bu kənd torpaqlarımız uğrunda mübarizədə beş şəhid verib. Onların dördü məzarsız şəhidlərdir, cənazələrini gətirib kənd qəbristanlığında dəfn etmək mümkün olmayıb. Burada cəmi bircə şəhid məzarı var. Həmin məzar bütün şəhid ailələri, bütün kənd əhalisi üçün əziz və doğmadır, müqəddəs ziyarət yeridir. Həmin məzarda şəhid Dadaşov Taleh Valeh oğu uyuyur.



Taleh 1976-cı ildə Valeh kişinin və Rəhilə xanımın ailəsində dünyaya gəlib. Ailədə üç qardaş, iki bacı olublar. Taleh ailənin ilk övladıdır. Bu ailə kasıb və imkansız olsa da, övladları mənəvi cəhətdən zəngin, ən başlıcası isə vətənpərvər olublar. Təsadüfi deyil ki, Talehin məzarı üstündə həmişə üçrəngli bayraq dalğalanır. Məzar qəbristanlığın girişində olduğundan buraya qədəm basanlara elə gəlir ki, kəndin qəhrəman oğlu həmişə insanları əlində üçrəngli Azərbaycan bayrağı ilə qarşılayır.

Dadaşovlar ailəsində vətənpərvərlik duyğusu bir növ estafet şəklini daşıyır. Talehin dayısı, 1965-ci ildə doğulmuş Adil İbrahimov da 1992-ci ildə könüllü olaraq Vətən uğrunda döyüşlərə atılmışdı. İki il əlində silah düşmənlərlə vuruşmuş, 1994-cü il aprelin 28-də Ağdərə uğrunda gedən ağır döyüşdə itkin düşmüşdür.

Həmin il orta məktəbi bitirən Taleh Dadaşov estafeti dayısından alaraq davam etdirmiş, Qazax rayonunun Bala Cəfərli kəndində hərbi xidmətdə olmuşdur. Düşmənin təxribat xarakterli bir sıra hücumlarına qarşı ağır döyüşlərdə iştirak etmişdir. Lakin 16 aprel 1997-ci il tarixində düşmən snayperinin gülləsinə tuş gəlmiş, boyun nayihəsindən ağır yaralanmışdır. Təəssüf ki, həkimlərin uzun müddət səyi heç bir nəticə verməmiş, 1998-ci ilin 19 aprelində kəndin qəhrəman oğlu dünyasını dəyişmişdir.

Bu gün bu kənd qəbristanlığında bir şəhid uyuyur demək bəlkə də düzgün deyil. Şəhid Taleh Dadaşovun məzarı bir əbədi yuxusuzluq timsalını xatırladır, gələnləri üçrəngli bayraqla qarşılayıb yola salır, gəncləri haqq, ədalət uğrunda gələcək mübarizələrə səsləyir.

**Z.MƏMMƏDOV**

# Şəhər 2 saylı tam orta məktəbində

## "XƏZƏR NƏĞMƏLƏRİ" ƏDƏBİ BİRLİYİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

Son vaxtlar məktəbimizdə keçirilən müxtəlif tədbirlərin, maraqlı görüşlərin sayı xeyli dərəcədə artıb. Bu günlərdə isə burada "Gündoğar" rayon qəzetinin nəzdində fəaliyyət göstərən "Xəzər nəğmələri" ədəbi birliyinin üzvləri ilə maraqlı, yaddaqalan bir görüş keçirildi.

Məktəbin geniş həyətində, açıq səma altında təşkil olunan görüşün aparıcısı Zeynəb xanım Muradova



"Xəzər nəğmələri" ədəbi birliyinin yaranması və fəaliyyəti haqqında qısa məlumat verdi. Göstərdi ki, bu birlik 1973-cü ildə rayonumuzdakı "Oktyabr bayrağı" (indiki "Gündoğar") qəzeti çapa başlayandan az sonra qəzetin ilk redaktoru Vaqif Əliyevin təşəbbüsü ilə yaradılıb, o vaxtdan da ona qocaman şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü Soltan Abbas rəhbərlik edir. İndiyə qədər "Xəzər nəğmələri"nin məşğələlərində çox yazarlar iştirak edib, onların sırasından neçə tanınmış şair yetişib. Nəğməkar şair Zərxanım Ülvini, "Aşıq Pəri" məclisinin yaradıcısı, ömrünün axırına qədər bu məclisə rəhbərlik edən Narınc Xatunu, Qorki adına Moskva Ədəbiyyat İnstitutunun məzunu Müzəffər Məzahimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü İmamverdi Zeynalovu, neçə maraqlı şeirlər kitabının müəllifi Atamalı Talıboğlunu və neçə-neçə başqalarını buna misal göstərmək olar. "Xəzər nəğmələri" bu gün də öz fəaliyyətini davam etdirir, onun üzvlərinin qələmə aldıqları ən yaxşı şeirlər bu gün də "Gündoğar"ın səhifələrində dərc olunur.

Görüşdə iştirak edən birlik üzvlərini təqdim etmək üçün söz "Gündoğar" qəzetinin əməkdaşı, "Xəzər nəğmələri"nin yetirməsi və aparıcısı Zabil Pərvizə verildi. Zabil müəllim belə bir maraqlı görüşün təşkilinə görə məktəb kollektivinə təşəkkürünü bildirdi, qonaqları görüş iştirakçılarına təqdim etdi.

Tanınmış müğənni Gülarə Məmmədova əsli bu kənddən olan, bu kənddə böyüyüb boya-başa çatan, bu məktəbdə oxuyan "Xəzər nəğmələri" ədəbi birliyinin yetirməsi Zərxanım Ülvinin sözlərinə bəstələnmiş lirik bir mahnını ifa etdi. Daha sonra söz Zərxanım xanımın özünə verildi. Zərxanım Ülvinin oxuduğu şeirlər də maraqla dinlənildi, alqışlarla qarşılandı. Məktəblilər şairəyə gül dəstəsi təqdim etdilər.

Görüşün digər iştirakçıları — Zabil Pərviz, Elnur Uğur, Cəmaləddin Babayev, İmamverdi Zeynalov və başqaları da özlərinin qələm məhsullarını oxudular, görüşə toplaşmış müəllim və şagirdlərin gur alqışlarını qazandılar.

Məktəblilərin ifasında Səməd Vurğunun "Vaqif" dramından parça, mahnı və rəqslər, "Xəzər nəğmələri"nin yetirməsi, hazırda təqaüddə olan keçmiş müəllimləri Fərhad Əzizbəylinin şeirləri də maraqla, gur alqışlarla qarşılandı.

Əlizadənin, Elnurun, Fuadın musiqi dəstəsi, Gülarə Məmmədovanın şux mahnıları görüşə xüsusi bir şirinlik gətirdi, onu daha maraqlı etdi.

Görüşün təşkilində məktəbin direktoru Rövşən Həsənovun xüsusi xidmətini qeyd edən Zeynəb xanım sonda sözü onun özünə verdi. Rövşən müəllim qiymətli vaxtlarını sərf edərək çağırışlarına gəldikləri üçün qonaqlara təşəkkürünü bildirdi, bundan sonra da belə maraqlı tədbirlərdən tez-tez keçirmək fikrində olduqlarını söylədi.

Görüşdən sonra qonaqların şirniyyat stolu arxasındakı söhbətləri də maraqlı keçdi. Məktəbin keçmiş direktoru, respublikanın Əməkdar müəllimi, "Təhsil muzeyi"nin rəhbəri Tədbir Mahmudov, sözə, sənətə yüksək dəyər verən, uzaq məsafə qət edərək bu görüşdə iştirak etməyə gələn gözəl ziyalı, tanınmış tibb işçisi Əliqulu Əliyev, uzun illər ayrı-ayrı məktəblərdə dərs demiş, Bankə qəsəbə 1 saylı və rayon şahmat məktəbində direktor işləmiş Tahir Əsədov, 4 saylı şəhər tam orta məktəbinin müəllimi Ələkbər Zahidov, "Təhsil muzeyi"nin təşkilində Tədbir müəllimin ən yaxın köməkçisi, gözəl rəssam, şair Fikrət İmanov və başqaları ürək sözlərini söylədilər, belə gözəl tədbirin təşkilinə görə məktəbin direktoru Rövşən müəllimə, məktəbin bütün pedaqoji kollektivinə özlərinin səmimi təşəkkürlərini çatdırdılar.

Sonda gələn qonaqlar buradakı "Təhsil muzeyi"nə baxdılar, kitablarını məktəbin pedaqoji və şagird kollektivinə təqdim etdilər, çoxlu xatirə şəkilləri çəkdirdilər.

**İbadulla ƏLİYEV,**
**məktəbin psixoloqu**

# TÜTÜN ƏLEYHİNƏ YENİ QANUN LAYİHƏSİ

Tütünün, siqaretin ziyanı hamıya yaxşı məlumdur. Bu elə bir bəladır ki, insan orqanizmini kökündən sarsıdır, onun bütün fəaliyyətinə əngəl törədir. Sağlamlıq naminə hamı siqaretdən könüllü şəkildə imtina etməli, qətiyyətlə ona "yox" deməlidir. Təəssüf ki, bunu hamı bacarmır, siqaretə hamı qətiyyətlə "yox" deyə bilmir. Bunun da nəticəsində böyük fəlakətlər baş verir. Siqaretin səbəb olduğu xəstəliklərdən hər il beş milyona yaxın insan dünyasını dəyişir! Tütün tüstüsü arteriyaları tutur, ürək xəstəliklərinə səbəb olur. Siqaret çəkənlərin ürək döyüntüsü sağlam insanların ürək döyüntüsündən 15000 vahid çoxdur. Siqaret çəkən insanlarda damarların sıxılması nəticəsində oksigen qidalanması aşağı düşür. Siqaret çəkmək pnevmoniya, xroniki bronxit və emfizema kimi nəfəs orqanlarının xəstəliklərinə də gətirib çıxarır.

Siqaretin ziyanlarını saymaqla qurtarmaq mümkün deyil. Buna görə ölkəmizdə siqaretə qarşı dövlət səviyyəsində ciddi mübarizə aparılır. Ötən ilin əvvəlində möhtərəm Prezidentimiz İlham Əliyev "Tütün və tütün məmulatı haqqında" qanuna dəyişiklikləri təsdiqləyib. Həmin sərəncama əsasən, Nazirlər Kabinetinə tapşırılıb ki, qanunların və prezident aktlarının "Tütün və tütün məmulatı haqqında" qanunda dəyişikliklər edilməsi barədə" qanuna uyğunlaşdırılması ilə bağlı təklifləri üç ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etsin, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın, bunun icrası barədə beş ay müddətində Prezidentə məlumat versin. Bununla bağlı digər əlaqədar orqanlara da konkret tapşırıqlar verilib.

Lap bu yaxınlarda isə Milli Məclisin əmək və sosial siyasət komitəsi ilə İnsan hüquqları komitəsinin birgə iclasında "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" yeni qanun layihəsi müzakirə olunub. Həmin layihə 3 fəsildən və 18 maddədən ibarətdir. Yeni qanun tütün istifadəsinin dayandırılmasına yönəlmiş tibbi yardımın göstərilməsi, tütün asılılığının və tütün istifadəsinin nəticələrinin profilaktikası, diaqnostikası və müalicəsi, vətəndaşlara pulsuz tibbi yardım göstərilməsinə dövlət zəmanəti proqramına müvafiq olaraq dövlət səhiyyə sisteminin, bələdiyyə səhiyyə sisteminin və özəl səhiyyə sisteminin tibbi təşkilatları tərəfindən həyata keçirilir.

Yeni qanun layihəsinə əsasən tütün istifadəsinin məhdudlaşdırılması və tütün tüstüsünün ətraf mühitə zərərli təsirlərinin



azaldılması məqsədi ilə səhiyyə, elm və təhsil müəssisələrində, muzeylərdə, kitabxanalarda, kino-teatr, teatr, sirk binalarında, sərgi və nümayiş salonlarında, idman yarışları, konsert və digər kütləvi tədbir keçirilən zallarda, ticarət, məişət və sosial xidmət obyektlərində, tütün çəkmək üçün xüsusi ayrılmış yerlər istisna olmaqla bütün növ ictimai iaşə obyektlərində, ümumi istifadədə olan yaşayış binalarında və digər qapalı yerlərdə, inzibati binalarda, fərdi iş otaqları və tütün çəkmək üçün müəyyən edilmiş xüsusi yerlər istisna olmaqla, iş yerlərində tütün çəkilməsinə icazə verilmir. Eyni zamanda, hava və dəniz (çay) limanlarının inzibati binalarında, dəmir yol vağzallarında, avtovağzallarda (avtostansiyalarda) və avtobus dayanacaq məntəqələrində tütün çəkmək üçün xüsusi ayrılmış yerlər istisna olmaqla, beynəlxalq və ölkədaxili sərnişin daşınmasında, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitələrində və taksi minik avtomobillərində, çoxmənzilli binaların liftlərində və ümumi istifadə otaqlarında, uşaq meydançalarında və çimərlik əraziləri hüdudlarında, şəhərətrafı qatarlarla sərnişin daşınması zamanı yalnız sərnişinlərin qatara minməsi, qatardan düşməsi üçün istifadə edilən sərnişin platformalarında, yanacaqdoldurma stansiyalarında, yüksək təhlükə mənbəyi hesab olunan digər obyektlərdə tütün çəkilməsinə icazə verilmir.

Azərbaycan Respublikasında təhsil və tərbiyə müəssisələrində, onların ərazilərində, səhiyyə, reabilitasiya və sanatoriya-kurort müəssisələrində, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatlarda, iş yerlərində, idman yarışları və başqa kütləvi tədbirlərin keçirildiyi zallarda, restoranlar, kafelər, barlar daxil olmaqla ictimai iaşə obyektlərində (açıq məkanlar istisna olmaqla), ticarət və məişət obyektlərində, sosial xidmət müəssisələrində, mehmanxanalarda, teatr və kino-teatrlarda, sərgilərdə, oxu zallarında, kitabxanalarda, muzeylərdə, habelə digər mədəniyyət obyektlərində tütündən istifadə qadağandır.

Sənəddə bildirilir ki, yetkinlik yaşına çatmayanlar tərəfindən tütün məhsulları satışı, hər hansı bir yolla tütün istifadəsi prosesinə uşaqların cəlb olunması qadağandır.

Bu qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar, Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar. Qanunun qüvvəyə minməsi ilə əlaqədar olaraq "Tütün və tütün məmulatları" haqqında Azərbaycan Respublikası Qanununun 20-ci və 21-ci maddələri ləğv edilir.

# GÜNDOĞAR

№ 11-12-13-14 (6637) 11 may 2017-ci il

SON SƏHİFƏ


# İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ MİNİ-FUTBOL TURNİRİ

Bütün ömrünü xalqının xoşbəxtliyinə, Vətəninin çiçəklənməsinə sərf etmiş ümummilli lider Heydər Əliyevin əziz xatirəsi ölkəmizdə həmişə anılır, böyük məhəbbətlə yad edilir. Bununla bağlı bir-birindən maraqlı, rəngarəng tədbirlər təşkil olunur.





Biz də bu tədbirlərdən kənarda qalmadıq. Dahi rəhbərin anadan olmasının 94-cü ildönümü ərəfəsində rayonun idarə və müəssisələri arasında maraqlı mini-futbol turniri keçirdik. Turnir böyük maraqla qarşılandı. Bu yarışlarda həvəslə iştirak edən idarə və müəssisələrin futbol komandaları birincilik uğrunda inamla mübarizə apardılar, nəyə qadir olduqlarını əyani şəkildə nümayiş etdirdilər.

Tərtib olunmuş qrafikə əsasən yarışlar üç qrupa ayrılmışdı. A qrupunda rayon icra hakimiyyətinin, rayon təhsil şöbəsinin, rayon mühafizə polisi bölməsinin, rayon qaz istismar sahəsinin, B qrupunda rayon yanğından mühafizə hissəsinin, Xıllı nərə balıqartırma zavodunun, Biləsuvar Regional Mədəniyyət və Turizm İdarəsinin, rayonun rabitə təşkilatlarının, C qrupunda isə "Azpetrol" yanacaqdoldurma stansiyasının, rayon mərkəzi xəstəxanasının, DSMF rayon şöbəsinin komandaları iştirak edirdilər.

Rayon icra hakimiyyətinin məsul işçisi Vasif Əliyevin, rayon gənclər və idman idarəsinin rəisi Yalçın Miriyevin və digər məsul şəxslərin iştirakı ilə rəsmi açılışdan sonra yarışlar başlandı. Meydana ilk olaraq rayon mühafizə polisi bölməsinin və rayon təhsil şöbəsinin idmançıları çıxdılar. Futbolçuların səylərinə baxmayaraq hər iki tərəf qapıya yalnız bir qol vuraraq oyunu heç-heçə başa çatdırdılar.

Mayın 1-də daha iki komanda - mədəniyyət işçilərilə rabitəçilər, DSMF rayon şöbəsinin kollektivilə mərkəzi xəstəxananın kollektivi üzüzə gəldilər. Birinci qarşılaşmada rabitəçilər böyük üstünlüklə mədəniyyət işçilərini məğlubiyyətə uğratdılar: 5:0. Mərkəzi xəstəxananın kollektivi isə DSMF rayon şöbəsinin kollektivinə 3:0 hesabı ilə qalıb gəldi.

Mayın 2-də də oyunlar gərgin idman mübarizəsi şəraitində keçdi. "Azpetrol" komandası ilə xəstəxana kollektivinin qarşıdurması 5:2, yanğından mühafizə hissəsinin komandası ilə Xıllı nərə balıqartırma komandasının qarşıdurması isə 4:1 hesabı ilə sona yetdi.

Sonrakı günlərdə oyunlar xüsusilə gərgin keçdi. Ayrı-ayrı idarə və müəssisələri təmsil edən komandalar əvvəldən axıradək gərgin mübarizə apardılar. Meydanı qələbə ilə tərk edənlər də oldu, məğlub olanlar da. Amma heç kim ruhdan düşmürdü, hamı mübarizəni böyük səylə, inadla davam etdirirdi.

Nəhayət, ayın 10-da keçirilən final görüşündə qalib müəyyən olundu. Daha güclü olduğunu sübut edən rayon qaz istismar sahəsinin komandası "Azpetrol" komandasına qalib gələrək birinci yerə layiq görüldü.



Üçüncü yerin sahibi isə rayon yanğından mühafizə hissəsinin komandası oldu. Birinci yeri tutan komandaya kubok təqdim edildi. Qaliblər qiymətli hədiyyələrlə mükafatlandırıldılar.

Həmin günlərdə yarışların keçirildiyi yerdə - H.Cavid adına şəhər mədəniyyət və istirahət parkındakı mini-futbol meydançasında qələbəlik yaşanırdı. Yüzlərlə futbolsevər buraya gələrək yarışları izləyir, qol sevincinin həyəcanını yaşayırdı. Əvvəldən axıradək gərgin mübarizə şəraitində keçən turnir yaddaşlarda xoş xatirə kimi qaldı.

**Elxan HƏSƏNOV,**
**rayon gənclər və idman idarəsinin aparıcı məsləhətçisi**

# Ardıcıl mütaliə vərdişi

"Ardıcıl mütaliə vərdişi." Bu ifadənin müəllifi mən deyiləm. Onu ilk dəfə Azərbaycanın "Milli İstiqlal" ordenli Xalq şairi Xəlil Rza Ulutürkdən eşitmişəm. Özü də bir dəfə yox, uzun illər boyu.

O zaman ali məktəbdə təhsil alırdım, birinci kurs tələbəsi idim. Yataqxanada Xəlil Rzanın tələbələrlə görüşü keçirilirdi. Tələbə yoldaşlarım Xəlil müəllimə balaca bir kağız göndərdilər: "Xahiş edirik Zabil Pərvizə söz verəsiniz." Xəlil müəllim məni xitabət kürsüsünə dəvət etdi. İki şeir oxudum, alqışlandım. Şeirlərim Xəlil müəllimin də xoşuna gəldi, görüşün sonunda adımı gündəliyinə yazdı, telefon nömrəsi verdi və ertəsi günü məni öz iş yerinə — Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutuna dəvət etdi. Xeyli söhbət etdik, ətraflı tanış olduq. Söhbətin sonunda dedi:

— Sənin birinci işin ardıcıl mütaliə vərdişinə yiyələnmək olmalıdır. İtalyan yazıçısı Rafaello Covanyolinin "Spartak" romanını oxumusanmı?

— Xeyr.

— Elə isə birinci ondan başlayaq. Oxu, bir də görüşək, görək nə çıxır.

Beləliklə, Xəlil müəllim hər görüşdə bir xarici roman oxumağı tapşırır, oxuyandan sonra məni sorğu-suala tutur, imtahan edirdi. O vaxta qədər mənim mütaliəm pərakəndə idi, amma böyük şair onu rejimə saldı, vərdişə çevirdi. Mən sanki paralel olaraq ikinci bir universitetdə təhsil aldım.

...Bu yaxınlarda "İctimai televiziya"nın efirində respublikamızın bir qrup tanınmış ziyalısı mütalə mədəniyyəti mövzusunda olduqca aktual və maraqlı bir müzakirə aparırdı. Uzun müddət idi ki, belə canlı, samballı, insan şüuruna işıq saçan müzakirə eşitməmişdim. Bayağı zövqlərə və yüksək maraqlara xidmət edən verilişlər televiziya ekranlarını çoxdan zəbt etdiyinə görə həm sevindim, həm də bu özünəqayıdışı alqışladım. Nə yaxşı olardı, belə verilişlərin sayı çox olaydı: "Kitabxana və gənclik"... Kaş bütün telekanallar öz pullu xidmətlərindən bir az vaxt ayırıb belə "pulsuz", sponsoru olma-



yan verilişlər də təşkil edəydi, "pulunu ver, şəklini çəkdir" "bazar"ından yarım saat da olsa uzaqlaşaydı...

Ardıcıl mütaliə vərdişindən, mütaliə mədəniyyətindən əvvəl ən azı ailədə uşağa kiçik yaşlarından kitaba hörmət və məhəbbət aşılanmalıdır. Vay o ailənin və evin halına ki, orada bir dənə də olsun bədii kitab yoxdur. Həmin evdə, ailədə böyüyən uşağın mənəvi dünyasından söhbət belə gedə bilməz: işıqdan məhrum göz, susuz quyu və nəhayət, intəhasız boşluq! Əlbəttə, o boşluğu zaman, məkan və mühit dolduracaq. Amma nə ilə dolduracaq, bax, burası çox maraqlıdır. Susuz quyunu küləklər hər cür zir-zibillə, toz-torpaqla, cır-cındırla, qurumuş kol-kosla doldurur, ilan, əqrəb yuvasına çevirir. Allahın bizə bəxş etdiyi gözəl ömrünü cahil, nadan ömrünə döndərir. Sonra valideyn gileylənir ki, mənim övladım mən deyən kimi olmadı, mən ondan çox şey gözləyirdim, amma alınmadı. Elədə isə çox haqlı bir sual ortaya çıxır: Sən ona vaxtında nə verdin ki, indi də ondan nəsə istəməyə haqqın olsun?! Böyük Səməd Vurğun yazırdı:

Ballı pətəklərə bənzər beynimiz,
İçində boş qalıb bəzi xanalar.

Bəli, o boş qalan bəzi xanaları özümüz doldurmalıyıq. Elmlə, ürfanla, işıqla doldurmalıyıq. Taleyin və mühitin ixtiyarına buraxsaq, əlbəttə ki, o xanalar hər cür zir-zibillə dolacaq, ilan, əqrəb yuvasına çevriləcək. Övladını kitablarsız, kitabxanalarsız böyüdən valideyn görəsən bilirmi ki, ocağında elə birnci özünün düşmənini böyüdür?

Bir tezisin üzərində yenə dayanıram: görəsən gəlin köçən hər yüz qızın neçəsinin cehiz əşyaları içində kitablar da var? Neçəsi kitab şkafı da aparır? Lap tutaq ki, aparır, aparıb içinə qab-qacaq doldurmur ki, görəsən? Həmin gənc ailədə doğulan ilk uşaq gözünü açıb bircə kitab görəcək, ya görməyəcək? Görməyəcəksə, hansı mütaliə mədəniyyətindən, hansı ardıcıl mütaliə vərdişindən danışmaq olar, atalar, analar? Mən sualımı verdim, cavabı sizdəndir...

**Zabil PƏRVİZ**

# Maraqlı, yaddaqalan görüş

Elm, təhsil, bilik, mənəviyyat aynası, xəzinəsi olan kitabxanalar hər zaman cəmiyyətin informasiya, məlumat mənbəyi olmuşdur. Zaman keçdikcə onlar daha yeni üsullardan istifadə edərək oxucuların diqqətini cəlb etməyi bacarmış, gənc nəslin dünyagörüşünün, vətəndaş



cəmiyyətinin formalaşmasına müsbət təsir göstərmişdir. Artıq bu gün kitabxanalar virtual aləmdə öz çeşid bazaları, kütləvi tədbirlərin fərqli təşkilinin təbliğinə görə diqqəti daha çox cəlb etməkdədirlər.

Çalışdığım mərkəzi kitabxana da müxtəlif tədbirlərlə, konfrans və görüşlərlə hər zaman oxucuların rəğbətini qazanmışdır. Son vaxtlar keçirdiyimiz "Kitabsız bir ömrün nə mənası var?" başlığı ilə ədəbi gecə, "Kitabxananın cəmiyyətdə rolu və vətəndaş tərbiyəsində əhəmiyyəti" başlığı ilə təşkil olunmuş konfrans, "Kitabi-Dədə Qorqud" dastanının alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illik tarixinin qeyd edilməsi" ilə bağlı məlumat günü, "Ömürdən ömürlərə iz salan milli qəhrəmanlar", "Qanlı və şanlı gecə", "Xocalı - dərdim mənim", "Erməni saxtakarlığı", "Molla Pənah Vaqif - 300", "Səhnədə keçən ömür", "Koroğlu operası - qəhrəmanlıq rəmzi" yaddaqalan tədbirlərimizdəndir.

Bu günlərdə keçirdiyimiz növbəti tədbirimiz də belə dəyərləndirildi. Bakı şəhərindən rayonumuza üz tutan yazarlarımızla kitabxanada təşkil olunan görüşdə Qafqaz Media İctimai Birliyinin sədri, Avrasiya Sanat Kültür Ədəbiyyat Federasiyasının Azərbaycandakı təmsilçisi, həkim, şairə Hacı Azadə Taleh, media təmsilçisi şairə Sona Abbasəliqızı, şair yazarlardan "Bayat" ədəbi birliyinin rəhbəri, Prezident təqaüdçüsü, gənc şair Qabil Ədalət, Prezident təqaüdçüsü, şairə Aləmzər Sadıqqızı, "Türk dünyası" qəzetinin təsisçisi və baş redaktoru, şairə Aybəniz Qafarlı, Azərbaycan İqtisad Universiteti Azərbaycan dili kafedrasının baş müəllimi, şairə Nailə Yusifqızı, Beynəlxalq Qadın Hüquqları İctimai Birliyinin sədri Təranə Namazova və başqa şəxslər, habelə Türkiyənin Rizə-ARD Kaymakanlığında Yazı İşləri müdiri Mövlut Altı da iştirak edirdilər.



Qonaqlar kitabxana ilə yaxından tanış oldular, nağıl otağında yaradılmış şəraitdən razı qaldılar. Tərtib edilmiş fərqli mövzu sərgiləri haqqında məlumat verilərkən kitabxananın təbliğat xidmətinin yüksək səviyyəsini dəyərləndirdilər. Tədbir boyu şair və yazıçılar öz yaradıcılıqlarından söhbət açdılar, şeirlərindən nümunələr söylədilər, torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin ruhunu yad etdilər.

Tədbirdə şəhər 1 saylı tam orta məktəbinin müəllimi Alimə Şabanova və məktəblilər fəal iştirak edirdilər. Məktəblilər bu il 55 illik yubileyi qeyd edilən Zərəngiz Dəmirçi Qayalının şeirlərindən nümunələr söylədilər. 4-cü sinif şagirdi Şahnaz Əsgərzadənin Aprel şəhidlərinə həsr edilmiş "Lələtəpə" şeri tədbir iştirakçılarını kövrəltdi, Samir Abdullayevin "İnsan haqları" mahnısı alqışlarla qarşılandı.

Tədbirdən sonra qonaqlar rayonumuzun Bankə qəsəbəsindəki qəbristanlığa gələrək 1918-ci ildə mənfur ermənilərə qarşı döyüşlərdə qəhrəmancasına şəhid olmuş türk əsgərlərinin məzarını ziyarət etdilər, buraya tər çiçəklər düzdülər.

Təşkil olunmuş tədbir iştirakçılar tərəfindən rəğbətlə qarşılandı. Qonaqlar tərəfindən kitabxanamıza hədiyyə edilən N.Yusifqızının "Misralar", Qabil Ədalətin "Bitməz könlümüzün Vətən sevgisi", Aybəniz Qafarlının "Kipriymdən qəm süzülür ", "Turana açılan könüllər" kitabları fondumuzu daha da zənginləşdirdi.

**Bədirə NİFTALİYEVA,**
**Neftçala Mərkəzləşdirilmiş Kitabxana Sisteminin metodika və biblioqrafiya şöbəsinin müdiri**

# DİQQƏTLİ OLAQ Kİ, XƏSTƏLƏNMƏYƏK

Hal-hazırda bakteriyaların, mikrobların, virusların insanlara hücum etdiyi bir fəsildir. Ona görə bu fəsildə həmin gözəgörünməz fəsadlara qarşı daha diqqətli olmalıyıq.

Müasir dövrdə yoluxucu xəstəliklərin bakteriyafaqlarla, lizin və epdelizinlə müalicəsində bir sıra uğurlar qazanılmasına baxmayaraq, yenə bəzi bakteriyalar həmin bakteriyafaqlara öyrəşirlər, onlara qarşı davamlılıqlarını qoruyub saxlayırlar. Şotland əsilli ingilis alimi Aleksandr Fleminqin pensillini kəşf etməsi o zaman üçün bakteriyaların, mikrobların məhv edilməsində əvəzedilməz nailiyyət sayıldığından 1945-ci ildə Nobel mükafatına layiq görülmüşdü. Hazırda isə bir çox həkimlər antibiotiklərlə müalicədən imtina etməyi təklif edirlər. Onlar düz buyururlar. Çünki uzun müddət antibiotiklə müalicə olunan xəstələrdə fəsadlar əmələ gəlir, bakteriyalar antibiotikə uyğunlaşır və antibiotik xəstəyə təsir göstərmir. Xəstə də deyir antibiotikdə güc qalmayıb, ya da dərman fabrikdə keyfiyyətsiz hazırlanıb.

Qeyd etmək lazımdır ki, eyni bir virus üç müxtəlif şəxsdə özünü müxtəlif formada büruzə verə bilir. Odur ki, bütün xəstələri eyni dərmanlarla müalicə etmək düzgün deyil. İlkin simptomlar özünü göstərdikdən sonra həkimlə məsləhətləşərək fərdi qaydada düzgün tədbirlərin görülməsi daha yaxşıdır. Xəstəlik birində quru öskürək, digərində bəlğəmli öskürək, yaxud iştahsızlıq, baş ağrısı və sair şəkildə olur. Diaqnoz qoyularkən xəstənin fərdi xüsusiyyəti nəzərə alınmalıdır.

Antibiotiklər potogen (xəstəlik törədən) bakteriyaları məhv etməklə yanaşı saprofit mikrobları da (onların orqanizmdə maddələr mübadiləsində müsbət iştirakı var) məhv edir. Həyatda bir çox adamlar var ki, onlar antibiotikdən hədsiz istifadə etdiyindən bağırsaqda olan müsbət (saprovit) mikrobları məhv edir, qəbul etdiyi qidaları 10-15 dəqiqə ərzində orqanizmdə saxlaya bilmir və xaric edir (difekasiya).

Hazırda biz antibiotiklərdən imtina edə bilmərik. Yeni nəsil preparatlar hasil olunana qədər orqanizmə indeferent təsiri olan, əlavə təsiri olmayan antibiotiklərdən fərdi istifadə etməliyik. Yaxşı olar zərif cinsin və güclü cinsin dərmanlarının təyinatı da fərqli qaydada tətbiq olunsun. Ağrıkəsicilər, antidepressant vasitələr fərqli hormonal reaksiyalara səbəb ola bilir.

Çoxlarımıza məlumdur ki, beynəlxalq səhiyyə təşkilatı 100 il bundan əvvəl qan qruplarının, laborator analizlərin, qan təzyiqinin və sairin ölçülməsi normativlərini qeyd edib. Amma hər 5-10 ildən bir bu normativlərdə dəyişiklik edilir. Məlum məsələdir ki, dünyada günəşli, subtropik, sərt və mülayim iqlimli ölkələr mövcuddur. Bitki və heyvanat aləmində genetik dəyişikliklər olduğu kimi, şəksiz ki, insanlarda da olur. Müalicə işində bu məsələyə də diqqət yetirilməlidir.

Bir neçə kəlmə də evdəki sakit qatildən, toksiki və kanserogen maddələrdən, təmizliyə, sanitar-gigiyena qaydalarına düzgün əməl olunmasının vacibliyindən söhbət açmaq istəyirəm. Evdə olan tozda toksiki kimyəvi maddələrlə yanaşı kanserogen maddələr də var. Biz çox vaxt bu maddələri evimizə öz əllərimizlə gətiririk. Məsələn, havatəmizləyicilər, sintetik yuyucular, dekorativ şamlar, plasmasdan hazırlanmış insanı valeh edən nəhəng dekorativ güllər (belə güllər iki ildən artıq olmadan təmizlənməli, ya da tez-tez dəyişdirilməlidir), divardan asılmış xalça, qeyri-təbii materiallardan hazırlanmış mebellər, nasaz soyuducu, qaz pilətəsi, içərisində isti qidalar qəbul etdiyimiz plastik qablar və sair vasitəsilə. Biz sanitar-gigiyena qaydalarına həmişə ciddi fikir verməli, təmizliyi gözləməliyik. Yadımızda saxlamalıyıq ki, bir çox xəstəliklərin yaranmasının və yayılmasının əsas səbəbkarı özümüzük. Qriplə xəstələnən insan maska taxmalı, kollektivdən kənarlaşmalı, havası tez-tez dəyişdirilən otaqda qalmalıdır. Onun qab-qaşığı ayrılmalı, dezinfeksiya edilməli, istifadə etdiyi əşyalar, dəsmallar qaynadılmalıdır. Süd məhsulları, limon, hərarətsalıcı preparatlar qəbul edilməlidir. İmmuniteti gücləndirmək üçün vitaminlərdən istifadə olunmalıdır. Belə vaxtlarda antibiotiklərlə müalicənin kəskin azaldılması məsləhətdir.

**Qurbanxan PİRƏLİYEV,**
**həkim, əczaçı**

# Yeni şeirlər

## BİR GÜN

Necə də uzaqdır yerin, məskənin,
Çəkilib göylərə həsrətin, qəmin,
Biz ki, vurğunuyduq sirli aləmin,
Qovuşub bahara gələrsən bir gün.

Gözləri yol çəkir uca dağların,
Açıb tər çiçəyi yaşıl bağların,
Dönəydi geriyə əzəl çağların,
Görüşüb baharla gələrsən bir gün.

Yazın yarpaqları yaşıl libasda,
Söyləyir nəğməsin kamanda, sazda,
Bülbüllər həvəsdə, şirin avazda,
Barışıb baharla gələrsən bir gün.

**İmamverdi ZEYNALOV**

## YAŞIDLARIMA

*(9 may Qələbə Günü münasibətilə)*

Biz hamımız dünyaya
Qələbə deyəndə gəldik.
Berlində faşistlər
Əsir düşəndə gəldik.
Gəlişimiz bir oldu,
Qoşa əkizlər kimi.
Taleyimiz cürbəcür,
Ayrılan kölgə kimi.
Kimi yuxularında
Xumar-xumar boy atdı.
Kimsəni yuxusundan
Ura! Səsi oyatdı.

**Arif XƏZƏROĞLU**

## DEYİLƏM

A dostlar, xoş sözlə dindirin məni,
Səhv etsəm, yolumdan döndərin məni.
Varsa nə işiniz, göndərin məni,
İnanın, susaram, dinən deyiləm.
Hər bir nöqsanımı deyin üzümə,
Dalda danışmayın, deyin özümə.
Varsa pis əməlim, deyin gözümə,
İnciyən deyiləm, küsən deyiləm.
Zərbələr dəysə də mənə çox yandan,
Qorxmaram ölümdən, nə də ki, qandan.
El üçün, xalq üçün keçərəm candan,
Heç vaxt məsləkimdən dönən deyiləm.
Bu həyat ömrümün imtahanıdır,
Hünər meydanıdır, söz meydanıdır.
Fikrimin göylərdə öz meydanıdır,
Bu eşqin fövqündən enən deyiləm.
Haqdan qüvvət alıb həmişə səsim,
Xalqımın alqışı olubdur bəsim.
Hələ təzə coşub arzum, həvəsim,
Əcəlin atını minən deyiləm.
Ey ürək, mən sənə can demişəm, can,
Qoymaram olasan heç vaxt köksü qan.
Başımın üstündə əssə də tufan,
Məşəl tək yanaram, sönən deyiləm.

## SƏNSİZ OLANDA

İndi o yerləri sənsiz gəzirəm,
Hər güldə, çiçəkdə vardır gül ətrin.
Mən ki, sənsizliyə belə dözürəm,
Yəqin sən dözməzdin, olmazdı səbrin.
Sənsiz qayalara, dağa qalxıram,
Könlüm heç açılmır, baxmır üzümə.
Çiçəyə baxıram, gülə baxıram,
Sənsiz ilhamım da baxmır sözümə.
Özüm də bilmirəm mən neyləmişəm,
Bulaqlar, çeşmələr məndən soyuyub.
Kiməsə mən səndən gileylənmişəm,
O da ki, xəbəri belə tez yayıb.
Su tək sənsizliyin qəlbimə axır,
Həsrətin buz olub üşüdür məni.
Qızlar da üzümə indi tərs baxır,
Dinləmir, nə də ki, eşidir məni.
Sənsiz ömür sürmək necə ağırmış,
Batmışam qüssəyə, batmışam qəmə.
Sənsiz çəmənlərin saçı ağarmış,
Sənsiz təbiət də yetimmiş demə.

**Atamalı TALIBOĞLU**

Mürsəqulu kənd sakini Cəfərov Ağasadıq Həsən oğlunun adına verilmiş 12 yanvar 1999-cu il tarixli, JN:0033 (KOD80710028) nömrəli torpağın mülkiyyətə verilməsinə dair Dövlət aktı itdiyinə görə etibarsız sayılır.


Baş redaktor
H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız:
Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38,
Telefon: 3-44-03
Mobil: (050) 333-72-30, (055) 669-56-71
H/H: №AZ95AIIB33080019446400258164
VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və "BZ" mətbəəsində çap olunmuşdur.
Dizayn Fərhad Ağayevin, fotolar Muradındır.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Tiraj: 600 Sifariş №14
Bir nömrənin qiyməti: 40 qəpik.